12_27 IYUI-QARA.qxd 4/6/2026 10:37 AM Page 1

UNİKAL

№12 (2292) 3 aprel 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Özəl klinikalarda bitmək bilməyən qalmaqallar!



Səh.6

# Məzahir Pənahovun kresloda son akkordları

*Yola salmaq üzrə olduğumuz həftə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovla bağlı ilginc xəbər yayılıb. Daha doğrusu, onun oğlu Məhəmməd Pənahovla keçmiş həyat yoldaşı Həlimə Pənahova arasındakı məhkəmə çəkişməsinin başa çatdığı, yekun qərarın da Məzahir müəllim üçün qanqaraldıcı olduğu aydınlaşıb.*

*Həmin xəbərə görə, bir müddət əvvəl Bakı Apellyasiya Məhkəməsi qadına çatmalı olan əmlakın ona qaytarılması barədə qərar çıxarsa da, M.Pənahov bununla razılaşmayıb və Ali Məhkəməyə müraciət edib.*

*Bakı Apellyasiya Məhkəməsinin qərarına əsasən, iddiada qeyd olunan əşyalar, onlar olmadıqda isə dəyəri Məhəmməd Pənahovdan alınaraq H.Pənahovaya verilməlidir. Məhəmməd Pənahov isə qərardan kassasiya şikayət verib. Ali Məhkəmə isə Məzahir Pənahovun oğlunun şikayətin təmin etməyib və Bakı Apellyasiya Məhkəməsinin qərarını qüvvədə saxlayıb.*

Səh.8

## "Məqsəd İranı təzyiq vasitəsi kimi danışıqlara sövq etməkdir"



*REAL Partiyasının sədri, iqtisadçı Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, ABŞ-İran müharibəsinin nə qədər davam edəcəyindən, ABŞ Prezidenti Donald Trampın Tehranı "Daş dövrünə qayıdış"la hədələməsinin məqsədindən, ABŞ-nin İranda quru əməliyyat keçirib-keçirməyəcəyindən...*

Səh.4

## Aprel qələbəsindən 10 il ötür



*Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı Aprel döyüşlərindən 10 il ötür.*

"Unikal" xatırladır ki, 2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğ-

Səh.10

## Zaur Əliyevlə bağlı ilginc müəmma



*Məlum olduğu kimi, bu ilin martın 19-da İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) ləğv edilərək səlahiyyətləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (ƏƏSMN) həvalə edilib. Qurumun ləğvindən sonra xeyli sayda yüksək vəzifəli məmur vəzifələrini itiriblər.*

Səh.5

12_27 IYUl-QARA.qxd 4/6/2026 10:37 AM Page 2



# "Xətrimə dəyəni silirəm" - Afaq Başirqızı



***"Bu dəqiqə heç kimi günahlandırmağa haqqım yoxdur. Əgər kimisə günahlandırsam, gərək onu bu vəziyyətə gətirəni günahlandırım. Biz özümüz zəmanəni idarə edirik. Niyə incəsənətin bugünki vəziyyətindən narazı olmalıyam? Dramaturq yazmırsa, yoxdursa, götür klassikadan istifadə et. Aktyor seçilmirsə, əlifbadan başlayaq".***

Bu sözləri Xalq artisti Afaq Başirqızı rejissor Nail Naiboğlunun yutub layihəsində deyib. Aktrisa sənət adamlarının həyatından, incəsənətdən danışıb: "Aktyora dərs deyən müəllimlərdən başlayaq. Ona bu sənəti öyrədən, necə gözəl məbəd olduğunu deyir. Bu məbəddən girmək üçün hər şeyini qurban verməlidir. Sənətkarın pulu, gözəl şəraiti olmur. Sənətkarın 99,99 faiz mənzili olmur. Bunu bilə-bilə sənətə gedir. Niyə? 2 saat, 45 dəqiqəlik çıxışında arzularını oynayır, özünü kral hesab edir. Aktyora bunları başa sala-sala sənətə gətirmək lazımdır. O bilməlidir ki, qurban gedir. Əbəs yerə demirlər ki, incəsənət qurban tələb edir. İnsan hansısa səhvi ya qudurğanlıqdan, ya da ehtiyacdan edir".

Aktrisa "Niyə yeni aktyorlar yetişmir" sözlərinə etiraz edib: "Bu qədər eqoist olmaq olmaz. Cavan uşaqlar var. Aktyor 120-130 manat alırdı. 50 faiz artanda 75 manat edir. Bir də kateqoriyalar: əyalət, şəhər, akademik... Aktyorların da ailəsi, balası var. İstəyirlər balalarını tanısınlar. Aktyorun məşq vaxtı ürəyi gedib. Təcili yardım gəlib ki, acdır. Bir dəfə dostuma dedim niyə çəkilmirsən? Dedi, Sumqayıtdan durub Bakıya gəlmək üçün avtobus və metroya minməliyəm. Yolda öləcəyəm, basdıranda bilməyəcəklər kiməm. Ondansa oturmuşam evimdə. Niyə deyirəm ki, dərdinizi danışmayın? Siz məhkumsunuz".

Başirqızı yaşadığı küsülülüklərdən söz açıb: "Mən də yalan danışmışam: kiminsə çantamda nəyinsə olduğunu bilməməsi üçün. Müqəddəs yalan danışmışam: kiminsə evini yıxmadan. Hər bir insanı bağışlayaram, ürəyimdə kin yoxdur. Xətrimə dəyəni silirəm. 15 il danışmadığım adamla səhnədə birlikdə rol oynadım. Gəldi, qarşımda diz çökdü. Dedim, aktyoruq, bir səhnədə oynaya bilərik. Amma get işinlə məşğul ol, səni insan saymıram. Tək Afaqla olmaz. Səhnədə gül, alqış lazımdır. Başıma yığmışam cavanları, orta yaşlıları. Mənim tamaşamda onlar xoşbəxt olurlar. Buna görə mənə paxıllıq çəkmək olmaz. Bilmirsən bir saat yarım səhnədə nələr çəkirəm. Yenə də bu vəziyyətdə səhnəyə çıxır, gülüş payını tamaşaçıya verirəm". (Axşam.az)

# "Puldan ötrü ölürəm, pul acıyam, məni xoşbəxt edən Mamed və puldur"

***Müğənni Afət Fərmanqızı sosial şəbəkədə etdiyi paylaşım ilə diqqət mərkəzinə düşüb.***



Milli.Az xəbər verir ki, sənətçi paylaşımında səsləndirdiyi fikirlərlə izləyicilər arasında geniş müzakirə yaradıb. Onun "puldan ötrü ölürəm, pul acıyam, məni xoşbəxt edən Mamed və puldur" sözləri sosial mediada birmənalı qarşılanmayıb.

Bəzi istifadəçilər bu açıqlamanı açıq və səmimi etiraf kimi qiymətləndirsə də, digərləri sənətçinin bu cür fikirlər səsləndirməsini tənqid ediblər. Xüsusilə maddiyyata bu qədər önəm verilməsi müzakirələrin əsas mövzusuna çevrilib.

Paylaşım qısa müddətdə geniş yayılaraq müxtəlif reaksiyalar doğurub. İzləyicilər arasında fikir ayrılığı yaranıb və mövzu sosial şəbəkələrin müzakirələrindən birinə çevrilib.



# Namiq Qaraçuxurlu villasından danışdı

***Meyxanaçı Namiq Qaraçuxurlu ona yazılan şərhlərdən danışıb.***

Sənətçi ona müsbət rəylərin çox yazıldığını bildirib. O qeyd edib ki, başqa sənətçilərin ev, maşın xəbərləri tənqid edildiyi halda, ona xoş sözlər yazılıb: "Novruz bayramında bağdan video paylaşdım. Yazıblar, "Namiq Qaraçuxurluğunun bağı". Belə yazılar qoyulanda camaat təhqir edir. Amma hamı yazıb ki, ona layiqdir, artığına layiqdir, illərdir əziyyət çəkir. Oxuyub kövrələrəm. Bir dəfə maşınımı qoymuşdular, ona da belə yaxşı yazmışdılar. Bu, mənim üçün xoşdur. Hər şeydə insanların fikrini alıram, nə olar, nə olmaz. Bunun bəhrəsini də görürəm. Dəyərlərini itirmiş adamlar hər dəfə cəmiyyətdən kiməsə hörmət görəndə mütləq nəsə etmək istəyirlər ki, həmin adam ləkələnsin, onların tayı olsun və rahatlaşsınlar. Bu dəfə o qədər də böyük hadisə baş verməyib, əsəbləşməzlər yəqin"./Axşam.az

# "Evlənməkdən qorxurlar" - Vasif Məhərrəmli

***"Son zamanlar sanki bir tendensiya başlayıb. Bilmirəm bu nə ilə bağlıdır. Oğlan deyir ki, qız tapa bilmir, qız da deyir ki, oğlan tapa bilmir".***



Bu sözləri Əməkdar artist Vasif Məhərrəmli "Qonaqcanlı" verilişində deyib. Sənətçi həmçinin boşananlarla bağlı statistikanın açıqlanmasına qarşı olduğunu bildirib: "Statistik məlumatların efirlərdə və saytlarda paylaşılması heç də yaxşı deyil. Çünki insanlar bundan təsirlənirlər və evlənməkdən qorxmağa başlayırlar. "Bu il boşananların sayı bu qədər oldu". Nə məcburdur ki, bunu açıqlayırsınız? Nə ölkənin adına, nə də insanların adına yaxşı bir şey deyil. Həm də yerdə qalan gəncləri qorxuya salırsınız, təşviş yaradırsınız".

# Üzgərdirmə etdirən məşhurlar gündəm oldu

***Üzgərdirmə əməliyyatı etdirən məşhurlar bir araya gəlib.***

"Yeni Sabah" xəbər verir ki, onlar aparıcı Türkan Məmmədlinin doğum günündə iştirak ediblər.

Bir masada əyləşən Rəqsanə İsmayılova, Şəbnəm Tovuzlu, Fatimə Fətəliyeva və Nigar İbrahimovanın görüntüləri sosial mediada müzakirələrə səbəb olub. Kameralara tuş gələn məşhurlar haqqında "Avatara oxşayırlar", "Yadplanetlilər yerə enib", "Üzlərində bir damcı nur qalmayıb", "Ağ koftalı elə bil xortlayıb" kimi şərhlər yazıblar.

Bəziləri isə Şəbnəmi bəyəndiklərini bildiriblər.




# Bankların mənfəəti artdı

***Azərbaycanın bank sektoru bu ilin yanvar-fevral aylarında 189,7 milyon manat xalis mənfəət əldə edib.***

"Unikal" Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 10,3 milyon manat və ya 5,7% çoxdur.

Eyni zamanda hesabat dövründə banklar 301,2 milyon manat məbləğində əməliyyat mənfəəti ediblər. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 26 milyon manat və ya 9,4% çoxdur.

Qeyd edilib ki, cari ilin 2 ayında banklar tərəfindən ümumilikdə 47,7 milyon manat məbləğində mənfəət vergisi ödənilib.

Bu ilin fevralın 28-nə bankların kredit portfeli 0.5% və ya 138,8 milyon manat artaraq 30 milyard 118,9 milyon manat olub.

Kredit portfelinin strukturu:

ı) biznes kreditləri - 53.3% (16,058 milyon manat); ıı) istehlak kreditləri - 31.4% (9 milyard 467,5 milyon manat) və ııı) ipoteka kreditləri - 15.3% (4 milyard 593,4 milyon manat).

Bankların öhdəliklərinin strukturunda ənənəvi olaraq depozit portfeli üstünlük təşkil edir - cəmi öhdəliklərin 75.2%-i və ya 37 milyard 290,6 milyon manat. Depozit portfelinin 54.8%-i (20 milyard 425,4 milyon manat) hüquqi şəxslərin, 45.2%-i (16 milyard 865,3 milyon manat) fiziki şəxslərin depozitlərindən (fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin depozitləri istisna olmaqla) ibarətdir.

# Azərbaycan-Çin münasibətləri müzakirə edildi

***Aprelin 2-də Milli Məclisdə Azərbaycan-Çin diplomatik münasibətlərinin qurulmasının 34 illiyinə həsr olunmuş dəyirmi masa keçirilib.***

Bu barədə "Unikal"a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Bildirilib ki, Milli Məclisin Çinlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov Çinin Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən olduğunu vurğulayıb, iki ölkə arasında diplomatik əlaqələrin yaradılmasından ötən 34 il ərzində münasibətlərimizin keçdiyi inkişaf yolundan danışıb.

O, Azərbaycan və Çin arasında iqtisadiyyat, mədəniyyət və digər sahələrdə də əməkdaşlığın yüksələn xətlə inkişaf etməsinin hər iki xalqın maraqlarına xidmət etdiyini qeyd edib, Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi layihələrin əhəmiyyətindən və gələcək planlardan danışıb.

Dəyirmi masada iştirak edən Çinin Azərbaycandakı səfiri Lu Mey iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasının 34-cü ildönümünün tamam olmasının qürurverici olduğunu qeyd edib.

Səfir Azərbaycanın Çinin qlobal təşəbbüslərinə dəstəyinin yüksək qiymətləndirildiyini, iki ölkə arasında ticarət dövriyyəsinin və digər sahələrdə əməkdaşlığın daim inkişaf etdiyini vurğulayıb.

Tədbirdə Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri - deputatlar Səbinə Salmanova, Günay Əfəndiyeva, Nigar Məmmədova, Rəşad Mahmudov, Tahir Mirkişili, Naqif Həmzəyev və Elman Nəsirov da iştirak ediblər.

# Məzahir Pənahovun kresloda son akkordları

## MSK sədri ilə bağlı nə baş verir? - Gözlənilməz məhkəmə qərarı, gözlənilən dəyişiklik...

***Yola salmaq üzrə olduğumuz həftə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovla bağlı ilginc xəbər yayılıb. Daha doğrusu, onun oğlu Məhəmməd Pənahovla keçmiş həyat yoldaşı Həlimə Pənahova arasındakı məhkəmə çəkişməsinin başa çatdığı, yekun qərarın da Məzahir müəllim üçün qanqaraldıcı olduğu aydınlaşıb.***

Həmin xəbərə görə, bir müddət əvvəl Bakı Apellyasiya Məhkəməsi qadına çatmalı olan əmlakın ona qaytarılması barədə qərar çıxarsa da, M.Pənahov bununla razılaşmayıb və Ali Məhkəməyə müraciət edib.

Bakı Apellyasiya Məhkəməsinin qərarına əsasən, iddiada qeyd olunan əşyalar, onlar olmadıqda isə dəyəri Məhəmməd Pənahovdan alınaraq H.Pənahovaya verilməlidir. Məhəmməd Pənahov isə qərardan kassasiya şikayət verib.



Ali Məhkəmə isə Məzahir Pənahovun oğlunun şikayətin təmin etməyib və Bakı Apellyasiya Məhkəməsinin qərarını qüvvədə saxlayıb.

"Teleqraf.az" mübahisəyə səbəb olan və Məzahir Pənahovun ailəsi tərəfindən keçmiş gəlininə qaytarılacaq 300 min manatlıq əmlakların siyahısını əldə edib.

Söhbət 17 adda qızıl-zinət əşyasından, 100-ə yaxın şəxsi əl işi olan rəsm əsərindən, ümumi dəyəri 60.000 manat olan iki çamadan şəxsi əşyalardan, 40 adda cehiz əşyasından, 10.000 manat puldan, 40 adda şəxsi geyim əşyalarından, 9 adda ziyafət paltarlarından gedir.

Onlardan bir neçəsini təqdim edirik:

1) Toy komplekti: boyunbağı, üzük, qolbaq, sırğalar - 150.000 AZN;

2) Brilyant tək qaş üzük - 50.000 AZN;

3) Mərkəzdə oval böyük brilyant, kiçik dairəvi brilyantlardan əhatə olunmuş tək qaş üzük - 40.000 AZN;

4) Brilyant komplekt: boyunbağı, üzük, qolbaq, sırğalar - 11.000 AZN;

5) Brilyant komplekt: boyunbağı, nişan üzüyü, sırğalar - 7.000 AZN;

6) Brilyant komplekt: boyunbağı, üzük, qolbaq, sırğalar - 20.000 AZN;

7) Brilyant üzük - 1.500 AZN;

8) Brilyant üzük 1 karatlı zümrüd daşla, yanlarda 0,5 karatlı 10 brilyant daşla - 1.500 AZN;

9) Ağ qızıldan brilyant qolbaq (Roberto Coin 23 qram) - 3.000 AZN;

10) Ağ qızıldan (qara və ağ) brilyant qolbaq (Roberto Coin 23 qram) - 3.000 AZN;

11) Qızıl qolbaq xırda brilyantlarla - 1.500 AZN;

12) Sadə qızıl qolbaq - 700 AZN;

13) Qızıl üzük kiçik brilyantla - 550 AZN;

14) Rado İsveçrə saat - 4.400 AZN;

15) Tissot saat - 3000 AZN;

16) Versace Hellenyium saat - 2266 AZN;

17) Swarovski saat - 824 AZN;

Qeyd edək ki, H.Pənahova keçmiş həyat yoldaşı ilə birlikdə ABŞ-nin Kaliforniya ştatında yaşayıb. Onun sözlərinə görə, evlilik müddətində əri tərəfindən şiddətə məruz qalıb, 17 ay birgə yaşadıqdan sonra qaldıqları villadan qaçaraq xilas ola bilib. Bir müddət əvvəl isə H.Pənahovanın həyat yoldaşı tərəfindən fiziki zorakılığa məruz qalmasına dair fotolar yayılmışdı.

Ali Məhkəmənin Məzahir Pənahov üçün qanqaraldıcı qərarı MSK sədrinin bu postla vidalaşacağı ilə bağlı iddialar fonunda xüsusi maraq doğurur. Məsələ ondadır ki, bu ay MSK sədri və üzvlərinin beş illik səlahiyyət müddəti bitir. "Unikal" qəzeti hələ ötən ilin payızında (daha dəqiq desək, sentyabrda) yazmışdı ki, qurumun yeni tərkibində Məzahir müəllim yer almayacaq. Əldə etdiyimiz xəbərə görə, yaxın günlərdə Milli Məclisdə bu məsələ müzakirə ediləcək və yekun qərar veriləcək.

Xatırladaq ki, ötən ayın 13-də hazırkı MSK sədrinin 75 yaşı tamam olub. Əslində, M.Pənahovun 26 ildir tutduğu vəzifədən təqaüdə göndərilməsi üçün zaman çoxdan yetişib, lakin uyğun namizədin müəyyənləşdirilməsi baxımından gözləmək məqsədəuyğun sayılıb. Lakin MSK sədrinin adı mütəmadi şəkildə ailə qalmaqallarında hallandığından artıq onun əvəzlənməsi açılmaza çevrilib.

Onu da yada salaq ki, hələ 2019-cu ildə ölkə mediası ölkədə aparılan kadr islahatları, uzun müddət eyni vəzifədə qalan və həmçinin pensiya yaşı keçmiş məmurların vəzifədən uzaqlaşdırılması prosesinin davamı olaraq MSK-nın o vaxt 68 yaşlı sədri Məzahir Pənahovun da istefa ərizəsini Milli Məclisə təqdim edəcəyini yazırdı. "MSK-da hakim Yeni Azərbaycan Partiyasını təmsil edən Pənahov Azərbaycanda iki vəzifə tutan məmurlardan biridir. O, paralel olaraq Bakı Dövlət Universitetinin ümumi fizika kafedrasının müdiri vəzifəsini daşıyır. Bildirək ki, prosedura görə MSK üzvlərini Milli Məclis parlamentdə təmsil olunan çoxluq, bitərəflər və azlıqda olan partiyaların irəli sürdüyü namizədlər əsasında formalaşdırır. Pənahovun istefasından sonra YAP yeni namizəd irəli sürəcək və ya qurumdakı əvəzedici üzv partiyanın yeni təmsilçisi kimi təsdiq olunacaq" deyə KİV yazırdı. Lakin sonradan bu iddialar öz təsdiqini tapmadı.

Maraq üçün əlavə edək ki, M.Pənahovun səhhəti səbəbindən istefaya göndəriləcəyi barədə ilk xəbər uzaq 2010-cu ildə yayılıb. Həmin vaxt cəmi 10 ildir bu postu tutan Məzahir müəllimin bu xəbərə reaksiyası belə olmuşdu: ""Siz məndən yazılanlara çox da fikir verməyin. 10 ildir yazırlar. Ancaq görürsünüz ki, gözünüzün qarşısındayam... Gəlin məsələləri dramatikləşdirməyin".

Məlumat üçün bildirək ki, MSK-nın tam tərkibinin, o cümlədən sədri və üzvlərinin səlahiyyət müddəti 5 ildir. MSK üzvləri Azərbaycan Respublikası Milli Məclisi tərəfindən seçilir. Hazırkı MSK-nın yeni tərkibi sonuncu dəfə 2021-ci il aprelin 27-də formalaşdırılıb.

***Toğrul Əliyev***

12_27 IYUl-QARA.qxd 4/6/2026 10:38 AM Page 4



# Paşinyan Putinin çətiri altından çıxır - Moskvadakı görüşün pərdəarxası

***Aprelin 1-də Kremldə baş tutan görüşdə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında səslənən fikirlər təkcə iki ölkə münasibətlərinin cari vəziyyətini göstərmirdi. Bu, həm də regionda formalaşan yeni siyasi reallıqları açıq şəkildə ortaya qoydu. Xüsusilə Putinin çıxışının ilk hissəsində Ermənistanın daxili siyasi proseslərinə - qarşıdan gələn seçkilərə diqqət yetirməsi Kremlin prioritetlərini və narahatlıqlarını göstərirdi.***



Rusiya lideri Paşinyan və nümayəndələri 2 cümlə ilə salamladı, üçüncü cümləsi isə bu il Ermənistanda keçiriləcək seçkilərlə bağlı oldu. Putinin çıxışında seçkilər mövzusuna erkən və birbaşa keçid təsadüfi deyildi. Bu, Rusiyanın Ermənistandakı daxili siyasi proseslərə marağının davam etdiyini və bu proseslərin nəticələrinin Moskva üçün strateji əhəmiyyət daşıdığından xəbər verir. Onun "Rusiyapərəst qüvvələrin iştirakının arzuolunan olması" ilə bağlı açıq mesajı isə diplomatik dillə ifadə olunmuş siyasi təzyiq kimi oxuna bilər.

Bu kontekstdə Putinin həbsdə olan, lakin Rusiya pasportuna sahib bəzi şəxslərin seçki prosesinə cəlb olunması arzusunu dilə gətirməsi, Ermənistanın suveren hüquqlarına dolayı müdaxilə kimi də qiymətləndirilə bilər. O, formal olaraq "müdaxilə etmirik" desə də, bu cür bəyanatlar Kremlin Ermənistan daxilində siyasi balansı təsir altında saxlamaq istədiyini göstərir.

Putin çıxışında Qarabağ məsələsinə də toxunub. O, 2022-ci ildə Praqa görüşündə Ermənistanın bu ərazini Azərbaycanın tərkib hissəsi kimi tanımasını xatırladıb. Bu vurğu əslində Rusiyanın öz mövqeyini əsaslandırmaq cəhdi idi: yəni KTMT-nin prosesə müdaxilə etməməsi guya məhz bu siyasi reallıqdan qaynaqlanıb. Əslində, Putin bunu demək olar ki, hər dəfə deməklə, sanki, Paşinyanı günahlandırmağa çalışır. Yəni o, Paşinyana deməyə çalışır ki, "sən Paraqada Azərbaycanın ərazi bütövlüyünü tanımasaydın, Rusiya sülhməramlıları vasitəsilə Qarabağda və regionda qalacaqdı". Paşinyan isə ağıllı addım ataraq həm erməniləri xilas etdi, həm də rusların bu barədə hər iki tərəfə təzyiq imkanlarını məhdudlaşdırdı.

Paşinyan Putinə dünənki cavabında da incə, lakin mühüm siyasi manevr etdi. O, Ermənistanın bu qərarı verməsindən əvvəl Rusiyanın ali rəhbərliyinin eyni mövqeyi ifadə etdiyini xatırlatdı.

Paşinyanın çıxışı ümumi ton baxımından sakit və konstruktiv görünsə də, məzmun etibarı ilə kifayət qədər prinsipial idi. O, bir tərəfdən Rusiyanın regionda rolunu və vasitəçiliyini yüksək qiymətləndirdi, digər tərəfdən isə Ermənistanın suveren qərarvermə hüququnu açıq şəkildə müdafiə etdi.

Seçkilərlə bağlı hissədə Paşinyan yalnız Ermənistan vətəndaşlarının siyasi proseslərdə iştirak edə bilməsini vurğuladı. Bu, Putinin dolayı təklif və tələbinə konkret və hüquqi əsaslı cavab idi. Eyni zamanda həm daxili auditoriyaya, həm də Moskvaya yönəlmiş mesaj idi.

Görünür, Paşinyan özünü və ölkəsini "Putinin çətiri" altından xilas etmək istəyir. Çünki sözügedən çətir onillərdir yağışdan qorumadığı kimi, onları gün üzünə də həsrət qoyub.

Nəticə etibarı ilə Kremldəki bu görüş formal diplomatik çərçivədən kənara çıxaraq açıq siyasi dialoq formatına çevrildi. Vladimir Putin Ermənistan daxilində təsir imkanlarını qorumağa çalışdığını açıq şəkildə nümayiş etdirdi. Nikol Paşinyan isə balanslı və hüquqi əsaslara söykənən cavablarla həm bu təzyiqləri neytrallaşdırmağa, həm də ölkəsinin suveren mövqeyini qorumağa çalışdı.

Bu dialoq göstərir ki, Ermənistanın qarşıdan gələn seçkiləri təkcə daxili siyasi hadisə deyil, həm də böyük güclərin maraqlarının toqquşduğu geosiyasi test olacaq.

Çünki hazırda Rusiya İrəvan vasitəsilə regiondakı sonuncu dayaq nöqtəsində qalmağa çalışır. Kreml yaxşı bilir ki, bu mövqeyin itirilməsi ilə Moskva nəinki regionda təsir gücünü, həm də hərbi gücünü itirə bilər. Söhbət Gümrüdəki 102-ci hərbi bazadan gedir. Ona görə ki, Paşinyanın yenidən qalib gələcəyi təqdirdə Rusiya bazasını ölkədən çıxaracağı istisna deyil. O, artıq Azərbaycanla sərhəddə, beynəlxalq hava limanı ərazisində və bir sıra yerlərdə rus hərbçilərin fəaliyyətini məhdudlaşdırıb.

Qərb isə Gürcüstanla münasibətlərin nisbətən pisləşməsindən sonra, regionda özünə yeni dost qazanmağa çalışır. İrəvanın birliyə olan meylini görən avropalılar bu şansı əldən vermək istəməyəcəklər. Kreml üçün olmasa da, Qərb üçün Paşinyan real seçimdir.

***Ağarza Elçinoğlu***

## Bağça müəllimlərinin yerdəyişməsi müsabiqəsi başlayır

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki məktəbəqədər təhsil müəssisələrində daimi əsaslarla işləyən tərbiyəçi-müəllimlərin yerdəyişməsi müsabiqəsinə start verilir.***

Bu barədə "Unikal"a BŞTİ-dən məlumat verilib.

Müsabiqədə iştirak etmək istəyən tərbiyəçi-müəllimlər 3-9 aprel tarixlərində müvafiq ərizə formasını dolduraraq BŞTİ-yə təqdim etməlidirlər. Yerdəyişmə üçün müraciət edən tərbiyəçi-müəllim təqdim olunan vakant yerlərdən yalnız birini seçə bilər.

İştirakçılar ərizəyə aşağıdakı sənədləri əlavə etməlidirlər:

-Yaşayış yerinin (rayonu, şəhəri) dəyişməsinə dair müvafiq təsdiqləyici sənəd (arayış);

- Şəxsiyyət vəsiqəsinin surəti;
- İşlədiyi məktəbəqədər təhsil müəssisəsində daimi əsaslarla tərbiyəçi-müəllim vəzifəsinə işə qəbul olunması haqqında əmrdən çıxarış (müəssisənin möhürü ilə təsdiq edilməlidir);
- Əmək kitabçasının surəti (müəssisənin möhürü ilə təsdiq edilməlidir);
- Diplomun surəti;
- Şəhid ailə üzvü olduğu halda həmin sənədin surəti.

## "Kaya Kallas Avropa İttifaqını rüsvay etdi" - Zaxarova

***Avropanın xarici siyasət rəhbəri Kaya Kallas Rusiyanı son 100 ildə Afrika da daxil olmaqla 19 ölkəyə hücum etməkdə ittiham edərək Aİ-ni növbəti dəfə utandırıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirib.

"Kallas bir daha Avropa İttifaqını rüsvay edib. Cahillik bu qədər tez sağalmır", - deyə o qeyd edib. Diplomat vurğulayıb ki, Afrikada qanlı iz buraxan məhz Aİ və NATO ölkələri olub və onlar 25 martda BMT Baş Assambleyasının kölə ticarətini pisləyən qətnaməsinə səs verməkdən imtina ediblər: "Yanvar ayında Kallas oxumağı sevdiyini etiraf etdi və çox ağıllı olacağına söz verdi. Mən ona kitab kolleksiyasına müstəmləkəçilik haqqında əsərlər əlavə etməyi məsləhət görərdim. Bəlkə də həqiqətən özünə gələcək, amma bu hələ fakt deyil".

***Ağarza Elçinoğlu***

## Vüsal Aslanov onu rəis təyin etdi

***Rüfət Məmmədov Bakı Metropoliteni Qapalı Səhmdar Cəmiyyətinin (QSC) İnsan resursları departamentinin Təşkilati inkişaf şöbəsinə yeni rəis təyin edilib.***

"Unikal" "Qaynarinfo"ya istinadən xəbər verir ki, bu barədə Bakı Metropoliteni QSC-nin sədri Vüsal Aslanov müvafiq əmr imzalayıb. Qeyd edək ki, R.Məmmədov bundan əvvəl sözügedən şöbənin müdir müavini vəzifəsində çalışırdı.

## Dövlət katibi Amerikanın İrandakı 4 məqsədini açıqladı

***ABŞ Prezidenti Donald Trampın "Epik Qəzəb Əməliyyatı" ilə bağlı çıxışından bir neçə dəqiqə sonra ABŞ dövlət katibi Marko Rubio X hesabında paylaşım edib.***

"Unikal" xəbər verir ki, dövlət katibi Amerikanın İrandakı məqsədləri barədə aydın danışıb.

O, əməliyyatın əsas məqsədləri kimi bu dörd məqsədi sadalayıb: "İranın silah fabriklərini, donanmasını, hava qüvvələrini və nüvə silahına sahib olmaq şanslarını məhv etmək".

## "Üçtərəfli danışıqlar dayandırılıb" - Putinin köməkçisi

***Ukrayna münaqişəsinin tənzimlənməsi ilə bağlı üçtərəfli danışıqlar dayandırılıb, lakin Rusiya tərəfi Amerika tərəfi ilə əlaqə saxlayır və ilk növbədə Ukrayna məsələsini müzakirə edir.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bildirib.

Onun sözlərinə görə, hazırda üçtərəfli danışıqlarda fasilə var: "Amerikalılarla əlaqələrimiz var, amma görürük ki, ukraynalılar da onlarla fəal danışıqlar aparırlar. İndi amerikalı danışıqçılar başqa bir şeylə, daha böyük bir problemlə məşğuldurlar".

***Ağarza Elçinoğlu***

# Prezident Qırğızıstana səfər edəcək



***Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstana səfər edəcək.***

"Unikal" xəbər verir ki, bunu Qırğızıstan Nazirlər Kabinetinin Sədri Adılbek Kasımaliyev aprelin 2-də Azərbaycan Prezidenti İlham Əliyevin qəbulunda olarkən deyib.

Adılbek Kasımaliyev bildirib ki, Qırğızıstan Azərbaycanla qardaşlıq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərə böyük dəyər verir: "Biz Sizin Qırğızıstana gözlənilən tarixi dövlət səfərinizə böyük əhəmiyyət veririk. Sevindirici haldır ki, bugünkü görüşümüz ölkələrimizin TDT çərçivəsində əməkdaşlığın dərinləşdirilməsinə sadiqliyini təsdiq edir. Əminəm ki, ticarət, nəqliyyat və logistika sahələrində olan layihələr bundan sonra da dövlətlərimizin dayanıqlı inkişafına xidmət edəcək. Həqiqətən də bizim ölkələrimizin qarşılıqlı maraq doğuran bütün sahələrdə yaxşı imkanları var".

# BMT Azərbaycanın təşəbbüskarı olduğu qətnaməni qəbul etdi



***Cenevrə şəhərində BMT-nin İnsan Hüquqları Şurasının 61-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə "Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi" adlı qətnamə yekdilliklə qəbul edilib.***

Xarici İşlər Nazirliyindən "Unikal"a bildirilib ki, sözügedən qətnaməyə əsas həmmüəllif ölkələr olan Türkiyə, Gürcüstan, Ekvador, Kenya, Malayziya və Tailand ilə yanaşı, Avropa İttifaqına üzv olan dövlətlər, Birləşmiş Krallıq, Kanada, Yaponiya, Avstraliya, Braziliya, Efiopiya, həmçinin Afrika, Asiya və Amerika qitələrini təmsil edən bir sıra digər dövlətlər milli qisimdə, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatı dövlətləri qrup şəklində həmmüəllif kimi qoşulublar.

Qətnamənin irəli sürülməsində məqsəd ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində mühüm nailiyyətlərindən olan və Azərbaycanın beynəlxalq müstəvidə brendinə çevrilmiş "ASAN xidmət" konsepsiyasına əsaslanan "dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması" prinsipinin BMT sistemi daxilində təşviq edilməsidir.

Qəbul edilmiş qətnamə səmərəli dövlət xidmətlərinin bütün insan hüquqlarının müdafiəsi və təşviqində və BMT-nin Davamlı İnkişaf Gündəliyinin həyata keçirilməsində əhəmiyyətini vurğulayır.

Qətnamədə rəqəmsal texnologiyaların, həmçinin süni intellekt sistemlərinin korrupsiyanın qarşısının alınmasında və onunla mübarizədə oynadığı mühüm rola, hər kəsə dövlət xidmətlərinin bərabər çatdırılmasına, həmçinin təbii fəlakətlərə hazırlıq, cavab tədbirləri və bərpa işləri kontekstində dövlət xidmətlərinin əhəmiyyəti məsələlərinə diqqət ayrılır.

Sənəd 2015-ci ildə "ASAN xidmət"in təltif edildiyi "BMT-nin Dövlət Xidmətləri Mükafatı"nı dövlət xidmətlərinin göstərilməsi sahəsində dünyanın ən nüfuzlu mükafatı olaraq təsbit edir, eyni zamanda, BMT qurumlarını və digər beynəlxalq təşkilatları müvafiq sahədə mövcud uğurlu təcrübələri təşviq etməyə və mükafatlandırmağa davam etməyə çağırır.

Qətnamədə, həmçinin İnsan Hüquqları Şurasının 65-ci sessiyasında fəlakətlərə hazırlıq, cavab tədbirləri və bərpa kontekstləri də daxil olmaqla dövlət xidmətlərinin çatdırılmasının insan hüquqlarının təşviqi və qorunmasında, həmçinin Davamlı İnkişaf Məqsədlərinə nail olunmasında rolu mövzusunda panel müzakirəsinin keçirilməsi qərara alınır.

Azərbaycanın təşəbbüsü ilə daha öncə 2018 və 2023-cü illərdə BMT-nin İnsan Hüquqları Şurasında konsensusla qəbul edilmiş 37/7 və 52/8 nömrəli eyniadlı qətnamələrin əsasında irəli sürülmüş cari qətnamənin yekdilliklə qəbul edilməsi və ona çox sayda dövlətlərin həmmüəllif qismində qoşulması, ölkəmizin dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması sahəsində müsbət təcrübəsinə və bu sahədə beynəlxalq müstəvidə öncül roluna beynəlxalq ictimaiyyət tərəfindən göstərilən dəstəyin bariz göstəricisidir.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# İlham Əliyev Cevdet Yılmazı qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

"Unikal" xəbər verir ki, Cevdet Yılmaz Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Cevdet Yılmaz Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu deyərək, məhz bunun Şuşa Bəyannaməsinin əsas prinsiplərindən biri olduğunu vurğuladı.

Prezident İlham Əliyev də öz növbəsində ölkəmizin hər zaman Türkiyənin yanında olduğunu dedi.



Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı, müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin münasibətlərimizin daha da genişlənməsi işinə töhfə verdiyi bildirildi.

Söhbət zamanı Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün keçirilməsinin əhəmiyyətinə toxunuldu, bu tədbirin təşkilat çərçivəsində əməkdaşlığın gücləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığı vurğulandı.

Cevdet Yılmaz bu toplantıda Şimali Kipr Türk Cümhuriyyətinin Baş nazirinin iştirakını da məmnunluqla qeyd edərək, buna görə Azərbaycan tərəfinə təşəkkürünü bildirdi.

Ötən il Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün yüksək səviyyədə keçirildiyini və həmin tədbirdə yaxşı nəticələrin əldə edildiyini deyən qonaq, Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyinin uğurlu olduğunu vurğuladı.

Görüş zamanı, həmçinin Azərbaycanla Türkiyə arasında ikitərəfli əməkdaşlığın perspektivləri, regional vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

# Dövlət qulluğu üzrə növbəti test imtahanlarının tarixi açıqlandı

***Dövlət İmtahan Mərkəzi (DİM) mayın 3-də dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər vəzifələr) aid AB və AC qruplarına və dövlət qulluğu vəzifələrinin B növünə (inzibati icraçı vəzifələr) aid BA və BB qruplarına uyğun vəzifələr üzrə test imtahanları keçiriləcək.***

DİM-dən "Unikal"a bildirilib ki, imtahan elektron formada kompüterlər vasitəsilə Bakı şəhərində təşkil olunacaq.

BA və BB vəzifə qruplarına uyğun imtahan saat 10:00-da, AB, AC vəzifə qruplarına uyğun imtahan isə saat 16:00-da başlanır.

İmtahanda iştirak etmək istəyən namizədlərin qeydiyyatı aprelin 2-dən 22-dək aparılacaq.

İmtahan vermək istəyən şəxslər DİM-in portalında "Şəxsi kabinet" yaratmalıdır (şəxsi kabineti olmayanlar). Kabinet yaradılan zaman pul hesabı açılır. İmtahanlarda iştirak üçün ödəniş tarifləri və üsulları DİM-in saytında yerləşdirilib. "Şəxsi kabinet" yaradıldıqdan və hesaba lazımi vəsait daxil edildikdən sonra imtahanlarda iştirak etmək üçün DİM-in internet portalında



"Dövlət qulluğuna qəbul üzrə test imtahanında iştirak etmək üçün onlayn qeydiyyat" xidməti vasitəsilə qeydiyyatdan keçmək lazımdır. Qeydiyyatdan keçən və imtahanda iştirak etməyən namizədlərin ödədiyi məbləğ geri qaytarılmır.

# Müdafiə Nazirliyinin vəzifəli şəxsinin cinayət işi məhkəməyə göndərildi

***Həsənov Rasim Əlövsət oğlunun Müdafiə Nazirliyinin Mərkəzi hərbi həkim komissiyasının rəisi vəzifələrində işlədiyi dövrdə vətəndaşlardan müxtəlif məbləğlərdə rüşvət alması və digər qanunsuz əməllərə yol verməsi barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin istintaqı yekunlaşdırılıb.***

Baş Prokurorluqdan "Unikal"a verilən məlumata görə, ibtidai istintaqla Rasim Həsənovun 2021-2025-ci illərdə sözügedən vəzifələrdə işləyərkən vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə ona müraciət etmiş hərbi qulluqçu-




ların şəhadətləndirilərək tərxis olunmaları üçün ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə pul vəsaitini rüşvət qismində təkrarən almasına və vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Rasim Həsənova Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.3.2, 311.3.3 (təkrarən külli miqdarda rüşvət alma), 313 (vəzifə saxtakarlığı) və 341.2.3-cü (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələri ilə ittiham elan edilməklə barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi baxılması üçün aidiyyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilib.

Eyni zamanda cinayət işindən oxşar xarakterli əməllərin törədilməsində iştirak etmiş şəxslərlə bağlı cinayət işi ayrıca icraata ayrılmaqla ibtidai istintaq davam etdirilir.

12_27 IYUl-QARA.qxd 4/6/2026 10:38 AM Page 6



# President TDT-yə üzv dövlətlərin hökumət nümayəndələrini qəbul edib

## İlham Əliyev: "Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına böyük töhfə verir və verəcək"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazı, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenovu, Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədri Adılbek Kasımaliyevi, Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataqulıyevi, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üsteli və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.***

"Unikal" xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi:

-Türk Dövlətləri Təşkilatının hökumət başçılarının toplantısı bu dəfə Bakıda keçirilir. Sizi səmimiyyətlə salamlayıram, xoş gəlmisiniz.

Əminəm ki, bu görüşün çox böyük faydası olacaq. Hər zaman olduğu kimi, bizim ölkələrimiz birlik, həmrəylik göstərəcəklər. Eyni zamanda, qarşımızda duran önəmli iqtisadi məsələlərin müzakirəsi üçün də bu görüşün çox böyük əhəmiyyəti var.

Bütövlükdə Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək. Bu, bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir. Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir.

Xarici siyasətimizdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə bizim əlaqələrimiz prioritet təşkil edir. Bu ölkələrlə bizim tarixi, mədəni, etnik köklərimiz gözəl təməl formalaşdırır və bu gün müstəqil dövlətlər kimi biz bütün beynəlxalq təşkilatlarda da vahid mövqedən çıxış edirik, bir-birimizi dəstəkləyirik. Yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq.

Təbii ki, təşkilatımızın gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq. Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda, qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik. Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır. Biz nə qədər səylər göstərsək, birlik göstərsək, önəmli layihələrin icrasına nail olsaq və eyni zamanda, tərəfdaşlarımız üçün də önəmli imkanlar yaratsaq, bizim beynəlxalq nüfuzumuz da, mövqelərimiz də, imkanlarımız da bir o qədər artacaq.

Dünyada bir çox beynəlxalq təşkilatlar var, ancaq etnik köklər üzərində yaranmış təşkilatların sayı o qədər də çox deyil. Yəni bu, bizim çox böyük üstünlüyümüzdür. Yəni bizi birləşdirən bizim etnik mənsubiyyətimizdir. Bu, birinci amildir. Ondan sonra bizim coğrafiyamızdır, ölkələr arasındakı çox xoş və isti münasibətlərdir, vahid məqsədlərdir. Ona görə bax, bütün bu amilləri nəzərə alaraq biz təşkilatımızı daha da yüksək pilləyə qaldırmalıyıq. Təşkilatımızın inkişafı üçün əlbəttə ki, Zirvə görüşlərinin böyük əhəmiyyəti var. Bu görüşlər müntəzəm olaraq keçirilir və bildiyiniz kimi, Azərbaycanın təşəbbüsü ilə dövlət başçılarının qeyri-rəsmi görüşləri də keçirilməyə başlamışdır. Birinci belə qeyri-rəsmi Zirvə Görüşü Qarabağda, Şuşada keçirilmişdir. Artıq bu, ənənə halına çevrilib və hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Dövlət başçıları artıq ildə ən azı iki dəfə görüşürlər. Çünki həm müzakirə edilməli məsələlər çoxdur, həm dünyada proseslər o qədər sürətlə gedir ki, daim biz məsləhətləşmələr aparmalı, bir-birimizin fikirlərini öyrənməli və düzgün qərarların qəbul edilməsi üçün ortaq addımlar atmalıyıq.

İqtisadi sahədə, - sizin də görüşünüzün əsas məzmunu bu olacaq, - işlər yaxşı gedir. Azərbaycana gəldikdə, bütün üzv ölkələrlə bizim ticarət dövriyyəmiz artır, qarşılıqlı sərmayə qoyuluşunun həcmi artır. Biz təşkilata üzv ölkələrin iqtisadiyyatlarına 20 milyard dollardan çox sərmayə qoymuşuq. Düzdür, bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir. Ancaq digər üzv ölkələrlə də qarşılıqlı sərmayə qoyuluşu prosesi gedir. Bizim Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə investisiya fondları yaradılmışdır. Bu fondlar vasitəsilə artıq bir çox layihələr icra edilir, yaxud da ki, onların icrası üçün hazırlıq işləri aparılır.

Xüsusi minnətdarlığı Qarabağın bərpasına qardaş ölkələrin dəstəyinə görə ifadə etmək istərdim. Həm bərpa işlərinə, həm Qarabağda yeni müəssisələrin yaradılması işinə verdiyiniz dəstək bizim üçün çox önəmlidir. Bildiyiniz kimi, artıq Özbəkistan tərəfindən bizə hədiyyə edilmiş Mirzə Uluqbəy məktəbi fəaliyyət göstərir. Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir. Qırğızıstanın hədiyyəsi olan Manas məktəbi fəaliyyət göstərir. Bunlar Füzuli, Ağdam rayonlarındadır. Türkiyədən olan bir çox şirkətlər önəmli infrastruktur layihələrində - yollar, körpülər, tunellər, dəmir yolları layihələrində iştirak edirlər. Eyni zamanda, Qarabağda iş yerlərinin yaradılması da bizim üçün çox önəmlidir və yenə də burada birinci xarici sərmayə qardaş ölkələrdən gəlib. Xankəndidə Özbəkistanın dəstəyi ilə böyük tikiş fabriki fəaliyyətə başlamışdır və hörmətli Prezident Şavkat Miromonoviç Mirziyoyevlə birlikdə biz o fabrikin açılışını qeyd etmişdik. Yəni bütün bunlar bir daha göstərir ki, bu gün bizim üçün əsas olan məsələdə, yəni Qarabağın və Şərqi Zəngəzurun bərpasında yenə də bizim yanımızda qardaş ölkələrdir. Biz də öz növbəmizdə hər zaman lazım olan dəstəyi göstərməyə hazırıq və bunu edirik. Türkiyədə yaşanan o dəhşətli zəlzələdən sonra Azərbaycan öz qardaşlıq dəstəyini göstərmişdir və Azərbaycanın maliyyə imkanları hesabına Kahramanmaraşda 100 milyon Amerika dolları dəyərində "Azərbaycan məhəlləsi" tikilib. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanla birlikdə biz bu "Azərbaycan məhəlləsi"nin açılışını da qeyd etmişdik.

Yəni bu, həm bir-birimizə göstərilən praktiki yardımlardır, eyni zamanda, bizim niyyətimizi göstərir. Eyni zamanda, bizim xalqlarımıza bir daha yol göstərir ki, biz bir-birimizin yanında olmalıyıq. Bütün dünyaya isə göstərir ki, Türk dünyası, Türk Dövlətləri Təşkilatı hər zaman - yaxşı günlərdə və çətin günlərdə üzv ölkələr səviyyəsində və təşkilat olaraq vahid məqsədlərə çatmaq üçün əlindən gələni əsirgəmir.

Təbii ki, iqtisadi məsələlərlə, sərmayə qoyuluşu məsələləri ilə yanaşı, bu gün bizim hamımızın qarşısında duran əsas məsələlərdən biri nəqliyyat, logistika, tranzit imkanlarımızı genişləndirməkdir. Prinsip etibarilə buna hər zaman ehtiyac var. Çünki ölkələrimizdən keçən Orta Dəhliz hər birimizin marağına cavab verir. Xüsusilə indiki geosiyasi vəziyyətdə Orta Dəhliz, Trans-Xəzər dəhlizi, Zəngəzur dəhlizi, bu istiqamətdə olan digər layihələr daha böyük önəm daşıyır. Yəqin ki, bu gün Azərbaycan tərəfi bu məsələ ilə bağlı məlumat verəcək. Azərbaycan ərazisində işlərin böyük hissəsi artıq görülüb. Həm dəmir yolları, Bakı Ticarət Limanı, bizim avtomobil yollarımız, hava limanlarımız - bütün nəqliyyat infrastrukturu hazır vəziyyətə gətirilib. O ki qaldı, Zəngəzur dəhlizinin icrasına, orada avtomobil yolunun təqribən 90 faizi, dəmir yolunun isə təxminən 70 faizi hazırdır. Ümid edirəm ki, yaxın gələcəkdə bu layihə tam icra ediləcəkdir. Bilirik və çox şadıq ki, Türkiyədə də Qars-Naxçıvan dəmir yolunun tikintisinə start verilmişdir. Beləliklə, bu layihələrin uzlaşdırılması, koordinasiya şəklində icra edilməsi yeni bir önəmli beynəlxalq dəhliz açacaqdır. Bu, Orta Dəhlizin bir qolu olacaq və bizim inşa etdiyimiz dəmir yolu infrastrukturu birinci mərhələdə 15 milyon ton yükün daşınmasına hesablanıb. Amma gələcəkdə bu arta da bilər və yəqin ki, artacaq. Amma hər halda 15 milyon tonluq yeni bir dəhlizin açılması həm ölkələrimiz, həm də geniş coğrafiya üçün böyük önəm daşıyır. Biz yenə də burada çox ciddi və məsuliyyətli mövqe sərgiləyirik - həm öz maraqlarımızı təmin edirik, həm də dünya üçün yeni nəqliyyat yollarını təqdim edirik. Yəni bu, bir daha göstərir ki, bizim ölkələrimizin və təşkilatımızın məramı sülhə, əməkdaşlığa, əmin-amanlığa, qarşılıqlı hörmətə və qarşılıqlı maraqlara yönəlibdir. Bax, bunları sizin diqqətinizə çatdırmaq istəyirdim. Bilirəm ki, bu gün sizin işiniz çox olacaq, bir çox məsələlər müzakirə ediləcək. Şübhə etmirəm ki, sizin görüşünüz bizim təşkilatımızın inkişafına növbəti töhfə olacaqdır. Bir daha sizi salamlayıram.





## "Türk dövlətləri heç zaman bu qədər yaxın olmayıblar" - Deputat

***"Bakıda Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin baş nazirlərinin ikinci görüşü başlayıb. TDT nəinki regionda, bütövlükdə bir sıra qlobal məsələlərdə xüsusi mövqeyə malik qurumlardandır".***

"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, 2.1 trilyon nominal ÜDM-ə malik olan Türk dünyası yeni regional əməkdaşlıq modelidir: "Kifayət qədər geniş və strateji baxımdan vacib hesab olunan coğrafiyada təşkilat çərçivəsində ünvanlı və sistemli əməkdaşlıq həyata keçirilir. Əgər Türk ölkələri vahid iqtisadi blok olsaydı, o zaman alıcılıq qabiliyyəti nəzərə alınmaqla ÜDM-in həcminə görə dünyada ən böyük 7-ci ölkə olardı. Belə k, Türk dövlətlərinin alıcılıq qabiliyyəti (PPP) nəzərə alınmaqla ÜDM-i 5 trilyon 476 milyard dollardır. Alıcılıq qabiliyyəti nəzərə alınmaqla Türk dünyasında adambaşına düşən ÜDM 31 min dollardan çoxdur. Türk dünyası bütövləşir, əməkdaşlıq və inkişaf edir. Türk dövlətləri indiki qədər heç zaman bu qədər yaxın və birgə olmayıblar. Buna sevinənlər də var, narahat olanlar da", - deyə deputat bildirib.

## Məhkəmə Tofiq Yaqublu barədə yekun qərar verdi

***Dələduzluqda təqsirli bilinən Müsavat Partiyasının üzvü Tofiq Yaqublunun kassasiya şikayətinə baxılıb.***



"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, Ali Məhkəmə bu gün yekun qərarını açıqlayıb.

Məhkəmə T.Yaqublu ilə bağlı əvvəlki qərarda qanun pozuntusu aşkar etməyib. Bu əsasla şikayət təmin edilməyib.

Qeyd edək ki, T.Yaqublu 2023-cü ilin dekabrında həbs edilib. O, Bakı Ağır Cinayətlər Məhkəmənsinin hökmü ilə 9 il azadlıqdan məhrum olunub. Apellyasiya instansiyası hökmü dəyişdirmədən təsdiqləyib.

# "Məqsəd İranı təzyiq vasitəsi kimi danışıqlara sövq etməkdir"

## Natiq Cəfərli: "Diplomatik danışıqlar, təmaslar üçüncü ölkələr vasitəsilə davam edir, müəyyən anlaşma formulları üzərində iş gedir"

***REAL Partiyasının sədri, iqtisadçı Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, ABŞ-İran müharibəsinin nə qədər davam edəcəyindən, ABŞ Prezidenti Donald Trampın Tehranı "Daş dövrünə qayıdış"la hədələməsinin məqsədindən, ABŞ-nin İranda quru əməliyyat keçirib-keçirməyəcəyindən və neftin hansı qiymətə qədər bahalaşa biləcəyindən danışıb.***

***-Natiq bəy, bir aydan çoxdur ki, ABŞ-İran müharibəsi davam edir. ABŞ İrana hərbi zərbələrin artırılacağını, İran ordusu isə müharibənin ABŞ və İsrail təslim olana qədər davam edəcəyini söyləyir. Necə düşünürsüz, müharibə nə qədər davam edəcək?***

-Müharibə başlayan gün - 28 fevralda Trampın canlı yayımda Amerika xalqına müraciəti var idi. Sanki bu dünyaya müraciət idi. Orada müharibənin 4-6 həftə davam edəcəyini söyləmişdi. İndi isə 5-ci həftənin içərisindəyik. Çox güman ki, 6 həftəlik müddəti keçməyəcək. Və yaxud keçərsə, çox az keçəcək. Ona görə ki, Amerikanın daxili qanunvericiliyinə görə, ABŞ prezidentləri Konqresin və Senatın təsdiqi olmadan, yəni, Amerika parlamentinin təsdiqi olmadan cəmi 60 gün müharibə apara bilər. 60 günün tamamında artıq müraciət olunmalıdır. Həm müharibəyə maliyyə ayrılmalıdır, həm də Amerika parlamenti dəstək verməlidir. Amerika parlamenti hərbi əməliyyatların aparılmasını dəstəkləməlidir. Tramp parlamentə müraciət etmək istəmir. Çünki orada tək demokratlar yox, bəzi respublikaçılar da bu müharibənin əleyhinədir. Amerikanın daxili qanunvericiliyini nəzərə salsaq, düşünürəm ki, Tramp təsdiq üçün parlamentə getməyəcək. Çünki bu əlavə problemlər yarada bilər. Ona görə aprel ayının sonuna 1 həftə və ya 10 gün qalmış, ən azından 2 ayın tamam olmağına bir neçə gün qalmış parlamentə müraciət olunmalıdır. Müraciət dövrünə qədər Tramp bu müharibəni bitirəcək. Həmin tarixləri nəzərə alsaq, ən geci aprelin 15-20-si tarixində müharibənin bitməsi ehtimalı yüksəkdir.

***-ABŞ Prezidenti Donald Tramp bildirib ki, növbəti iki-üç həftə ərzində İrana hərbi zərbələrin intensivliyi əhəmiyyətli dərəcədə artacaq. ABŞ lideri həmçinin İran rəhbərliyini Amerika administrasiyası ilə razılığa gəlməyəcəyi təqdirdə Tehranı "Daş dövrünə qayıdış"la hədələyib. Tramp bu çıxışı ilə nəyi nəzərdə tutur?***

-Bu, danışıqlarda təzyiq vasitəsidir. Nəzərdə tutduğu isə odur ki, əgər anlaşma olmasa, birinci Xark adasındakı neft infrastrukturu dağıdıla bilər. Bu o deməkdir ki, İranın 90 faiz neft ixracatı dayanacaq. Oradakı nasos stansiyaları, rezervuarları sıradan çıxsa, İran neft ixrac edə bilməyəcək. Elektrik enerjisi istehsal edən böyük elektrik stansiyalarını sıradan çıxarsalar, 90 milyonluq ölkə qaranlığa qərq ola bilər. Çox güman ki, "Daş dövrü" deyəndə onu nəzərdə tutur. "Daş dövrü"ndə elektrik enerjisi olmayıb. Düşünmürəm ki, buna qədər vəziyyət gərginləşəcək. Təzyiq vasitəsi kimi bu sözlər, çağırışlar edilir. Məqsəd İranı təzyiq vasitəsi kimi danışıqlara sövq etməkdir. Maraqlı bir hadisə baş verdi. İran Prezidenti Məsud Pezeşkian Amerika xalqına müraciət etdi. Müraciətinin əsas kodları ondan ibarət idi ki, biz düşmən deyilik, yanlış təsəvvür edirsiz. Biz öz maraqlarımız uğrunda vuruşuruq. Bizim Amerika xalqı ilə düşmənçiliyimiz yoxdur. Buna cavab olaraq ABŞ Prezidenti Donald Tramp tvit atdı ki, İranın indiki rəhbərliyi anlaşmaya daha isti yanaşır. Anlaşma üçün danışıqlara qapı aralayır. Bu o deməkdir ki, intensiv olaraq danışıqlar gedir. Elan etməsələr də, danışıqlar aparılır. Bu danışıqların yaxşı nəticə ilə bitməsi üçün İran daxilində danışıqların əleyhinə olan ciddi hərbi-siyasi qruplaşma var. Onlara təzyiq vasitəsi kimi Tramp bu bəyanatlardan istifadə edir. Bu gün faktiki olaraq İranda hakimiyyət hərbiləşdirilmiş siyasi qrupların - Bəsicin və İslam İnqilabı Keşikçiləri Korpusunun əlinə keçib. Onlara təzyiq etmək üçün Trampın bu bəyanatları səsləndirdiyini söyləmək mümkündür. Düşünürəm ki, diplomatik danışıqlar, təmaslar üçüncü ölkələr vasitəsilə davam edir. Müəyyən anlaşma formulları üzərində iş gedir.



***-Bir müddət əvvəl ABŞ İrana qarşı quru əməliyyatlarından danışırdı. Sizcə, ABŞ İranda quru əməliyyatı həyata keçirəcəkmi və olacaqsa, bu əməliyyat necə nəticələnə bilər?***

-Bu məsələ gündəmə gələndən məntiqini anlamaqda çətinlik çəkirdim. Quru əməliyyatları nə deməkdir? 90 milyonluq əhalisi, 1.7 milyon kvadratkilometrlik ərazisi olan İranda quru əməliyyat aparmaq üçün ən azı 2,5-3 milyon qoşun lazımdır. Hansısa adanın tutulması nə verəcək? Hansısa adanı tutsalar belə, əgər həmin ada Hörmüz boğazına nəzarət üçün nəzərdə tutulubsa, İranın materik, yəni ana hissəsində 140 kilometrlik Hörmüz boğazına paralel sahil zolağı var. Əgər anlaşma olmasa, oradan keçən gəmiləri adi 10-20 min dollarlıq dronlarla, toplarla belə vurmaq mümkündür. Quru əməliyyatları gələcəkdə anlaşmanın həyata keçiriləcəyindən sonra təhlükəsizliyin təmin edilməsi üçün ola bilər. Yəni, anlaşma olacaqsa, orada olan Amerika ordusu anlaşmanın həyata keçirilməsinə mane olan qüvvələrin qarşısını kəsməyə çalışacaq. İranda monolit hakimiyyətin olduğunu söyləmək çətindir. Ola bilər ki, siyasi qanad anlaşsın, hərbi qanad isə anlaşmasın. Hərbi qanadla mücadilə üçün ola bilər ki, hansısa əməliyyatlar həyata keçirilsin.

***-Məlum olduğu kimi, bu müharibə dünya enerji bazarında ciddi çalxalanma yaradıb. Neft yüksək qiymətə satılır. Qarşıdakı dövrdə neft qiymətlərinin hansı həddə qədər bahalaşacağını düşünürsüz?***

-Neftin və qazın qiymətinin bahalaşmasının fundamental iqtisadi təməl səbəbləri yoxdur. Burada yeganə səbəb müharibədir. Nə vaxt müharibə dayanacaqsa, həmin vaxt qiymətlərin kəskin şəkildə və bir neçə gün ərzində hətta 90 dollardan da aşağı düşməsi gözlənilir. Məsələn, 2007-2008-ci illərdə bugünkü gündən daha baha qiymətlər idi. Neftin qiyməti 148 dollara çatmışdı. Çünki hasilatla bağlı problem var idi. Yəni, neft hasil edən ölkələr neftin hasilatını azaltmışdı, tələb çox idi. İndi isə hasilatla bağlı problem yoxdur. Daşınma ilə bağlı problem var. Daşınma isə müharibəyə görə problemə çevrilib. Müharibə bitən kimi neftin qiymətində azalmaların şahidi olacağıq.

***-Neft qiymətlərinin bahalaşması Azərbaycan neftinin qiyməti artırıb. 2026-cı ilin dövlət büdcəsində neftin bir barelinin qiyməti 65 dollar nəzərdə tutulub. Hazırda isə "Azeri Light" markalı neftin 1 barelinin qiyməti 100 dollardan baha satılır. Yaranan əlavə vəsaitin hansı sahələrə ayrıla biləcəyini düşünürsüz?***

-Çox güman ki, olacaq. Azərbaycanda belə ənənə var ki, may-iyun aylarında büdcəyə əlavələr və dəyişikliklər oluna bilər. Yəqin ki, mayın sonu iyun ayının əvvəllərində parlamentə büdcəyə əlavələr və dəyişikliklərlə bağlı qanun layihəsi təqdim olunacaq. Burada bəzi sosial xərclərin, maaşların və təqaüdlərin artırılması nəzərdə tutula bilər. Bundan əvvəlki müzakirələrdə hər il minimum əməkhaqqının artırılması ilə bağlı təklif var idi. Bu il hələki minimum əməkhaqqı artırılmayıb. Ona görə minimum əməkhaqqının və minimum təqaüdün artırılması ilə bağlı qanunvericilik təklifləri ola bilər. Düşünmürəm ki, fantastik dərəcədə yüksək artım olacaq. Amma ən azı 10-15%-lik artımlar gözlənilir.

***Anar Kəlbiyev***

# Zaur Əliyevlə bağlı ilginc müəmma

## Sabiq sədrdən sonra çox sayda yüksək vəzifəlinin də postunu itirməsi nədən xəbər verir? - Sensasiyalı iddialar

***Məlum olduğu kimi, bu ilin martın 19-da İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) ləğv edilərək səlahiyyətləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (ƏƏSMN) həvalə edilib.***

Qurumun ləğvindən sonra xeyli sayda yüksək vəzifəli məmur vəzifələrini itiriblər.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyevlə yanaşı, qurumun sədr müavini Nigar Bayramova da vəzifəsiz qalıb. İTSDA bunlarla yanaşı 10-dan çox yüksək vəzifəli şəxs də vəzifəsini itirib:

* Tibbi planlama departamentinin rəhbəri Hikmət İbrahimli,
* Hüquq departamentinin rəhbəri Aysel İbayeva,
* Maliyyə departamentinin rəhbəri Rasim Həsənov,



* Vətəndaş müraciətləri və sənədlərlə iş departamentinin rəhbəri Ehtiram Mikayılov ,
* Beynəlxalq əlaqələr departamentinin rəhbəri Ruslan Abdullayev,
* İnzibati idarəetmə departamentinin rəhbəri Emin Hüseynov,
* İnformasiya texnologiyaları departamentinin rəhbəri Nicat Kərimov,
* Tibbi yardımın maya dəyərinin hesablanması xidmətinin rəhbəri Orxan Qənbərov,
* Strateji inkişaf və iqtisadi təhlil departamentinin rəhbəri Ramil Muxtarzadə,
* Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Aynurə Əhmədova,
* İnsan resurslarının idarəedilməsi və inkişafı departamentinin rəhbəri Müşfiq Əmircanov,
* Çağrı mərkəzi xidmətinin rəhbəri Nərminə Ramazanova
* Tibbi xidmətlərin təminatı və ekspertizası departamentinin rəhbəri Nərgiz Ağayeva (Qaynarinfo).

Onu da deyək ki, İTSDA-da çox qısa vaxtda bu qədər yüksək vəzifəlinin işsiz qalması maraq doğurmaya bilməz. Əlbəttə, qurumun ləğv edildiyini və onun səlahiyyətlərinin ƏƏSMN-yə verildiyini nəzərə alsaq, burada ilk baxışda təəccüblü heç nə görünmür. Lakin unutmamaq lazımdır ki, bəhs olunan səlahiyyətlərin icrası baxımından əvvəllər İTSDA-da çalışmış kadrların təcrübəsinə ehtiyac duyula, dolayısı ilə onların bəziləri adıçəkilən nazirlikdə işə götürülə bilərdi.

Məsələ burasındadır ki, İTSDA-nın ləğvi ilə bağlı Prezidentin imzaladığı Fərmana əsasən, bu qurum ƏƏSMN-nin tabeliyində fəaliyyət göstərən Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə birləşdirilib. Nəticədə yeni qurum - Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi (DTSEA) yaradılıb. Yeni agentlik publik hüquqi şəxs kimi fəaliyyət göstərəcək və nazirliyin tabeliyində olacaq. DTSEA ölkədə icbari tibbi sığortanın tətbiqinə nəzarət edəcək, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsini təmin etmək üçün vəsaitləri icbari tibbi sığorta fondunda cəmləşdirəcək və həmin vəsaitlərin idarə olunmasını həyata keçirəcək. Eyni zamanda agentlik dövlət adından tibbi xidmətlərin mərkəzləşdirilmiş alıcısı kimi çıxış edəcək və xərclərin ödənilməsini təmin edəcək. Belə olan təqdirdə DTSEA-nın sözügedən səlahiyyətlərinin icrasında ləğv edilmiş İTSDA-nın sabiq yüksək vəzifəlilərinin təcrübəsindən faydalanmaq, odur ki, onları işə götürmək mümkün idi.

Hazırkı mənzərədən görünən isə odur ki, onların xidmətinə gərək duyulmayacaq və sözügedən kadrlar başqa yerlərdə iş axtarmalı olacaqlar. Bunun səbəbi nə ola bilər? İlk ağla gələn İTSDA-nın fəaliyyət göstərdiyi müddətdə gözləntiləri doğrultmaması istiqamətində sərt tənqidlər və ciddi ictimai narazılıq, ən əsası da bu qurumda qaranlıq, şübhəli maliyyə əməliyyatları aparılması barədə ardı-arası kəsilməyən iddialardır. Elə adıçəkilən Dövlət Agentliyinin ləğvində həlledici rolu da məhz özügedən iddiaların oynadığına dair cəmiyyətdə qətiləşmiş qənaət hökm sürür. Belədə isə Zaur Əliyev və keçmiş komandasına kəskin etimadsızlıq başadüşüləndir. Görünür, İTSDA-nın sabiq yüksək vəzifəlilərinin yeni yaradılan agentlikdə də oxşar iş prinsipləri ilə çalışacaqlarından, beləcə, çox keçmədən DTSEA-nın da reputasiyasının ciddi şəkildə zədələnəcəyindən ehtiyat edilir.

Yeri gəlmişkən, hələ TƏBİB-in sədri Vüqar Qurbanov vəzifədən azad edildikdən sonra Zaur Əliyevin də işdən çıxarılacağı barədə iddialar gündəmə gəlmişdi. Onların yaxın olduqları, ortaq və paralel fəaliyyət göstərdikləri haqda mediada xəbərlər yer almışdı. Bu fəaliyyətin qanuna zidd olduğuna dair fikirlər ictimai rəydə geniş yayılmışdı. Sonda iddialar təsdiqini tapdı: Zaur Əliyev eynilə Vüqar Qurbanov kimi işsiz qaldı.

İndi isə cəmiyyətdə və mediada başqa bir məsələ aktuallaşıb. V.Qurbanovla Z.Əliyevin əlbir olub yol verdikləri ciddi nöqsanlara, maliyyə pozuntularına görə hüquqi mustəvidə də cəzalandırılıb-cəzalandırılmayacaqları maraq doğurur. Yəqin ki, sözgedən məsələyə qarşıdakı günlərdə, həftələrdə tam aydınlıq gələcək. Xüsusilə TƏBİB-in yeni rəhbərliyi tam müəyyənləşdikdən (hazırda icraçı direktoru vəzifəsi müvəqqəti olaraq Anar İsrafilova tapşırılıb: o, sözügedən vəzifəyə Vüqar Qurbanov postunu itirdikdən sonra gətirilib) və DTSEA tam formalaşdıqdan sonra maraqlı proseslərin şahidi ola bilərik. Belə ki, həm TƏBİB-də, həm də İTSDA-da sabiq rəhbərlərin dönəmində çox sayda qanunsuzluqlara yol verildiyini ortaya çıxaran konkret faktların ifşası mümkündür. Bu isə böyük ehtimalla V.Qurbanov və Z.Əliyevin başı üstündə “qara buludların dolaşmasına” gətirib çıxaracaq.

***Sənan Mirzə***

## "Azərbaycan TDT-nin fəaliyyətinə fəal töhfə verməyə hazırdır" - Əli Əsədov




***Azərbaycan bundan sonra da Türk Dövlətləri Təşkilatının fəaliyyətinə fəal töhfə verməyə hazırdır.***

”Unikal”ın xəbərinə görə, bunu Baş nazir Əli Əsədov Türk Dövlətləri Təşkilatının (TDT) üzv ölkələrinin baş nazirləri və vitse-prezidentlərinin Bakı görüşündə bildirib.

“Azərbaycan bundan sonra da Türk Dövlətləri Təşkilatının fəaliyyətinə fəal töhfə verməyə, üzv dövlətlərlə çoxtərəfli və ikitərəfli əsasda əməkdaşlığı daha da inkişaf etdirməyə hazırdır. Cari ildə Azərbaycanın sədrliyi çərçivəsində təşkilat daxilində həmrəyliyin möhkəmləndirilməsi, praktiki əməkdaşlığın genişləndirilməsi və ortaq təşəbbüslərin irəli aparılması istiqamətində məqsədyönlü səylər davam etdiriləcək.

Əminik ki, ortaq siyasi iradə, qarşılıqlı dəstək və praqmatik yanaşma nəticəsində Təşkilatımızın nüfuzu və təsir imkanları daha da artacaq, xalqlarımızın rifahına xidmət edən yeni layihələr həyata keçiriləcək. Bugünkü görüşün də qarşılıqlı anlaşma, səmərəli müzakirələr və konkret nəticələrlə yadda qalacağına inanıram”, - deyə Baş nazir qeyd edib .

## "Yaxın zamanda daha çox inkişaf etmiş Qarabağı görəcəyik" - Cevdet Yılmaz



***”Türk dövlətləri yaxın zamanda birlikdə daha çox inkişaf etmiş Qarabağı görəcək”.***

”Unikal” xəbər verir ki, bunu Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaz başçılıq etdiyi nümayəndə heyətinin tərkibində Azərbaycan Prezidenti İlham Əliyevin qəbulunda olarkən deyib.

O, türk dövlətlərinin Qarabağdakı inkişafa görə qürur duyduqlarını qeyd edib: ”Sizin bir az əvvəl vurğuladığınız kimi, Türk Dövlətləri Təşkilatı çox qısa müddətdə böyük yol qət etdi. İnşallah, qarşıdakı dövrdə bu daha da dərinləşərək davam edəcək. Təşkilata sədrliyiniz çox uğurla davam edir. Xüsusilə Sizin ilk dövrlərdən etibarən Türk Dövlətləri Təşkilatına yaxından göstərdiyiniz diqqətə və verdiyiniz dəstəyə görə minnətdarıq.

Qarabağdakı inkişafa görə də hamımız qürur, iftixar duyuruq. Qarabağ yenidən Azərbaycan oldu, azadlığına qovuşdu. Ancaq bununla da kifayətlənilmədi, Qarabağda böyük inkişaf, sərmayələr var. İnşallah, yaxın zamanda hamımız birlikdə daha çox inkişaf etmiş Qarabağı görəcəyik. Biz də Türkiyə Cümhuriyyəti olaraq əlimizdən nə gəlirsə, daim Qarabağın, Azərbaycanın yanındayıq”.

## Azərbaycanda pul bazası 4 faizdən çox artıb



***Bu il aprelin 1-nə Azərbaycanda pul bazası 23 milyard 765 milyon manat təşkil edib.***

“Unikal”.az Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu, martın 1-i ilə müqayisədə 4,2 % çoxdur.

Ölkədə pul bazası ilin əvvəlinə nisbətən 5,8 %, son 1 ildə isə 10,5 % artıb.

12_27 IYUI-QARA.qxd 4/6/2026 10:38 AM Page 9






## Ali təhsil müəssisələrinə sınaq imtahanına qeydiyyat elan edildi

***Dövlət İmtahan Mərkəzi (DİM) mayın 10-da I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanı modelinə uyğun sınaq imtahanı keçirəcək. Bu, DİM tərəfindən ali təhsil müəssisələrinə qəbul imtahanının II mərhələsi üzrə keçiriləcək yeganə sınaq imtahanıdır.***

DİM-dən "Unikal"a bildirilib ki, imtahanın məzmunu və təşkilati forması qəbul imtahanlarının modelinə tam uyğundur. Dövlət İmtahan Mərkəzi digər özəl qurumların keçirdikləri sınaq imtahanlarının məzmunu və təşkilinə cavadehlik daşımır və abituriyentlərə yalnız Mərkəzin rəsmi sınaq imtahanında iştirak etmələrini tövsiyə edirik.

Sınaq imtahanına qeydiyyat 22 aprel saat 23:59-dək aparılacaq. Qeydiyyatdan keçmək üçün ekabinet.dim.gov.az keçidində "Şəxsi kabinet" yaradılmalıdır (şəxsi kabineti olmayanlar). "Şəxsi kabinet"in "Hesab" bölməsinə imtahanda iştirak üçün nəzərdə tutulan məbləğ (40 AZN) yüklənilir. Hesaba lazımi miqdarda vəsait əlavə etmək üçün müxtəlif ödəniş üsullarından yararlanmaq olar.

Daha sonra DİM-in saytında yerləşdirilən qeydiyyat linki vasitəsilə "Şəxsi kabinet"in istifadəçi adı və parolundan istifadə etməklə sistemə daxil olub "İmtahana buradan yazılın" düyməsini basmaq lazımdır. Açılan səhifədə imtahan yeri seçilir. Sonra isə imtahan verəcəyiniz bölmə, ixtisas qrupu seçilir və "Qeydə al" düyməsi basılır.

I ixtisas qrupu üzrə imtahan vermək istəyənlər RK və ya Rİ, III ixtisas qrupu üzrə imtahan vermək istəyənlər isə DT və ya TC altqruplarından birini seçməlidirlər. Sınaq imtahanında hər iki altqrupu seçməyə icazə verilmir. I qrup üzrə RK altqrupunu seçənlər riyaziyyat, fizika, kimya, Rİ altqrupunu seçənlər riyaziyyat, fizika, informatika, III qrup üzrə DT altqrupunu seçənlər Azərbaycan (rus) dili, tarix və ədəbiyyat, TC altqrupunu seçənlər Azərbaycan (rus) dili, tarix və coğrafiya fənləri üzrə imtahan verirlər.

İmtahanın müddəti 3 saatdır. Yazılı cavablandırılması tələb olunan açıq tipli tapşırıqların cavabları "cavab vərəqi"ndə nəzərdə tutulan müvafiq yerlərdə, digər tapşırıqların cavabları isə "cavab kartı"nda qeyd olunur. İmtahanın sonunda cavab vərəqələri və cavab kartları abituriyentlərdən təhvil alınır.

Sınaq imtahanı Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Şəmkir, Şəki, Bərdə, Göyçay, Şirvan, Xaçmaz və Lənkəran şəhərlərində təşkil olunacaq.

İmtahan yeri (binası) barədə məlumat imtahandan bir həftə əvvəl Mərkəzin saytına yerləşdiriləcək buraxılış vərəqəsində qeyd olunacaq.

Test tapşırıqları 11-ci sinif üçün ümumtəhsil müəssisələrində qüvvədə olan tədris proqramlarının 2026-cı il aprel ayının sonunadək olan hissəsini əhatə edəcək.

# Özəl klinikalarda bitmək bilməyən qalmaqallar!

## Birində pasient 530 manatlıq analizə görə qovulduğundan şikayətçidir, o birində qastroenteroloqun ixtisası əslində pediatr imiş - Və daha nələr, nələr!

***Azərbaycanda özəl klinikalar ətrafında qalmaqallı xəbərlərin ardı kəsilmir. Üstəlik, maraqlı burasıdır ki, sözügedən qalmaqallar Səhiyyə Nazirliyinin bu tibb müəssisələri üzərində nəzarəti gücləndirdiyinə dair iddialar fonunda gündəmə gəlir.***

Təkcə son bir neçə gündə müxtəlif özəl klinikalarla bağlı adama "yox, artıq bu qədər də olmaz!" dedirdən xəbərlər yayılıb. Belə xəbərlərdən ilki "Funda" hospitalı ilə bağlıdır. Belə ki, tanınmış həkimlərin pasiyentə məhz işlədiyi klinikada analizlərdən keçirməsi və digər heç bir laboratoriyanın cavablarını qəbul etməməsi halları uzun illərdir var. Eyni vəziyyətlə "Funda" hospitalda üzləşən pasiyent bu yanaşmanın mahiyyətini anlamadığını bildirib.



Ayaz Səmədzadə şikayətində ətrafının tövsiyəsi ilə seçdiyi həkimin qəbulundan məhz analiz məsələsinə görə imtina alıb: "Xahiş edirəm məni başa salın, bəlkə mənim bu məsələdə anlamadığım nəsə var. Dünən "Funda" hospitalda qaraciyərimi yoxlatmaq üçün Fərrux Nağıyevin qəbuluna yazıldım. Heç bir ciddi problemim yox idi, sadəcə ailəmizdə şəkər xəstələri var deyə, mən də yoxlanmaq istədim. Qəbula 50 manat ödədim, həkim məni dinlədi, kağıza 5-6 analiz yazdı ki, bunları verin. Reseption isə ümumi klinikanın yox, elə həkimin öz şöbəsinin qəbul şöbəsi idi.

Ordakı xanım ümumi 528 manat ödəməli olduğumu deyəndə buna gücüm çatmadığını anladım və təklif etdim ki, kağızı verin, özüm Referansda, ya daha münasib yerdə verim, cavablarla gəlim. Razı olmadılar, pulumu da qaytarıb dedilər, xoş getdin. Yəni mədəni şəkildə qovuldum. Hələ də heç nə anlamıram. Dostum da həkimdir, zəng edib ona danışdım. Dedi yaxşı qurtarmısan, səni əməliyyat masasına uzatmayıblar".

"Medicina" məsələ ilə bağlı Fərrux Nağıyevin fikrini almaq üçün köməkçisi ilə əlaqə saxlayıb. Əsas sorğu həkim üçün məhz çalışdığı klinikada pasiyentin analiz verməsinin səbəblərini öyrənmək olsa da, həkim şikayətin harda yayımlandığını öyrənəndən sonra açıqlama verməkdən imtina verib: "Həkim öz mövqeyini hüquq mühafizə orqanlarına bildirib. Bu məsələ ilə bağlı böhtana görə polis orqanlarına müraciət olunub. Məsələ mübahisələndirilsə, məhkəməyə müraciət olunacaq".

Yasamal rayonu ərazisində yerləşən "Doktor Davud" klinikasında isə aparılmış yoxlamalar zamanı ciddi nöqsanlar aşkarlanıb. "Teleqraf"ın əldə etdiyi məlumata görə, klinikanın direktoru, tanınmış həkim Davud Qüdrətovun ixstisasına uyğun fəaliyyət göstərmədiyi məlum olub.

Belə ki, Davud Qüdrətov ixtisasca pediatr olsa da, bu sahə üzrə sertifikasiyadan keçsə də, klinikaya müraciət edən xəstələrə qastroenteroloji tibbi xidmət göstərib.

Bundan başqa, yoxlama aparılarkən həkim-dermatoloqun fəaliyyətini qiymətləndirmək mümkün olmayıb. Eyni zamanda lisenziyada ixtisas növləri verilən terapevtik, qastroenteroloji, nevropatoloji, ginekoloji işlər üzrə təqdim edilən davamiyyət sənədlərinə əsasən ixtisaslı mütəxəssisin olmadığı müəyyən edilib.

Səhiyyə Nazirliyi tərəfindən aparılan yoxlama zamanı klinikada klinki-biokimyəvi laboratoriyanın sahələri sanitar-epidemioloji qaydaların tələblərinə uyğunlaşdırılmadığı üzə çıxıb.

Qeyd edək ki, nazirlik tərəfindən "Doktor Davud" klinikası ilə bağlı protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilib. Klinika məhkəmə qərarı ilə 6000 manat cərimələnib.

Bu arada Səhiyyə Nazirliyi tərəfindən Bakının Binəqədi rayonunda fəaliyyət göstərən "Verteba" klinikasında keçirilən yoxlama zamanı da ilginc pozuntular müəyyən olunub. Belə ki, klinikada sertifikatsız, hətta orta ixtisas tibb təhsili olmadan "fizioterapevtik" işi üzrə masaj prosedurlarının həyata keçirilməsi aşkar edilib. Həmin fəaliyyət isə Səadət Nəsibova, Urqaya Rzayeva və Pəri Nərimanova tərəfindən həyata keçirilib.

Nəticədə nazirlik tərəfindən klinika barədə İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsi üzrə protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilib. Məhkəmənin qərarına əsasən, "Verteba" klinikası 6000 manat cərimələnib.

Qeyd edək ki, "Verteba" Onurğa Tibb Mərkəzinin baş həkimi İradə Hacıyevadır. Holdinqin rəhbəri isə İlqar Əliyevdir.

Bu yaxınlarda 240 min manatdan çox vergi borcu, uğursuz əməliyyatlar, ölüm və koma qalmaqalları ilə gündəmə gələn "MedAura" klinikasının fəaliyyətini dayandırmaq əvəzinə adını dəyişərək yenidən bazara qayıtmağa hazırlaşdığı barədə xəbər yayılıb. "Medicina.az"ın əldə etdiyi məlumata görə, hazırda sosial şəbəkə hesablarını bağlayan klinika yaxın vaxtlarda tamamilə başqa adla fəaliyyətə başlamağı planlaşdırır. Məqsəd isə əvvəlki qalmaqalları arxada qoyaraq yeni pasiyentlər cəlb etməkdir. 240 min vergi borcu 2010-cu ildə dövlət qeydiyyatına alınan klinikanın nizamnamə kapitalı cəmi 20 manat təşkil edir.

MMC-nin qanuni təmsilçisi İsbiyev Mübariz Qabil oğlu göstərilir. Dövlət Vergi Xidmətinin məlumatına görə, müəssisə fəaliyyət dövründə iki dəfə adını dəyişib. Klinika əvvəlcə "Nihat Klinika", 2018-ci ildən isə "MedAura Klinika" MMC kimi fəaliyyət göstərib.

Eyni ünvanda fəaliyyət göstərən klinika əsasən estetik, plastik və kosmetoloji əməliyyatlar üzrə xidmətlər göstərib. Mənbələrin sözlərinə görə, klinikada əməliyyat otaqları müxtəlif həkimlərə və kosmetoloqlara kirayə verilir, həmçinin bazar qiymətindən aşağı qiymətlər elan edilərək müştərilər cəlb olunurdu. Son illərdə isə klinika daha çox uğursuz əməliyyatlar və pasiyent şikayətləri ilə gündəmə gəlib.

Uzun müddət klinikanın baş həkimi olmuş Nigar Məhəmmədova çoxsaylı pasiyent ağırlaşmaları səbəbindən vəzifəsindən uzaqlaşdırılıb. Hazırda klinikanın baş həkimi Münəzzim Zahidov göstərilir. Lakin klinikanın fəaliyyətində problemlər bununla bitmir.

Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, klinikanın hazırda dövlət büdcəsinə 241 690,82 manat vergi borcu var. Bundan başqa, 2011, 2012, 2016, 2017, 2018, 2019, 2021, 2022, 2023 və 2024-cü illərdə vergi hesabatlarını vaxtında təqdim etmədiyinə görə müəssisəyə 15 dəfə maliyyə sanksiyası tətbiq edilib. Bütün bu pozuntulara baxmayaraq, klinikanın fəaliyyətini davam etdirməsi ciddi suallar doğurur.

Beləliklə, sadəcə son 2-3 həftədə özəl klinikalarla bağlı bir-birindən qalmaqallı çox sayda xəbər yayılıb. Görünən odur ki, bu cür tibb müəssisələri üzərində nəzarətin axır vaxtlar xeyli gücləndirildiyi barədə deyilənlər ya tamamilə fiksiyadır, ya da gözdən pərdə asmağa hesablanıb. Üçüncü variant da mümkündür: ola bilsin ki, Səhiyyə Nazirliyi özəl klinikalarda yoxlamaların intensivləşdirib, ancaq belə olan təqdirdə də bu ya formal xarakter daşıyır, ya da daha sərt tədbirlərə ehtiyac var...

***Sənan Mirzə***

12_27 IYUl-QARA.qxd 4/6/2026 10:38 AM Page 10



# Səlim Müslümovun əldən çıxan əmlaklarının aqibəti

## Sabiq nazirin yarım milyon manatdan baha satılan obyektini kim alıb?

***Hazırda şərti cəza çəkən sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun Bakının mərkəzində yerləşən müsadirə edilmiş obyekti satılıb.***

450 min manata hərraca çıxarılan qeyri-yaşayış sahəsini 600 min manata alıblar.

Səbail rayonunun Azadlıq prospektindəki həmin obyektin sahəsi 50.6 kv.m olub. İcra məmuru əmlakı ilk hərracda satıb (Qafqazinfo).

Qeyd edək ki, S.Müslümov 2021-ci ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs olunmuşdu. O, 27 milyon manat mənimsəmədə təqsirli bilinmişdi. Belə ki, Müslümovun rüşvət alma yolu ilə 13.296.355 manat, mənimsəmə yolu ilə 7.237.188 manat, israf edilmiş yolla 7.087.671 manat ziyan vurduğu üzə çıxmışdı. Sabiq nazirin barəsində Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə ittiham elan edilmişdi. Dövlətə dəymiş ziyanı ödədiyi üçün ona şərti cəza verilmişdi. Əlavə olaraq eks-nazirin çox sayda əmlakı müsadirə edilmişdi.



Onu da deyək ki, hələ fevralda yayılan məlumatda Müslümovun müsadirə edilmiş evinin və obyektinin satışa çıxarıldığı açıqlanmışdı. Həmin vaxt bildirilirdi ki, iki əmlakın ümumi satış qiyməti təxminən 1 milyon 376 min manat təşkil edir.

Mənzillərdən birinin dəyəri bir milyon manata yaxındır:

- Yasamal rayonu, Mirzə İbrahimov küçəsində 370.4 kv.m sahəsi olan yaşayış evi - Satış qiyməti 926 250 manat;
- Səbail rayonu, Azadlıq prospektində qeyri-yaşayış sahəsi - Satış qiyməti 450 000 manat.

Xatırladaq ki, sabiq nazirin ümumilikdə 20 milyon manatlıq əmlakı dövlət nəfinə müsadirə edilib.

Bildirək ki, bu ilin yanvarında da S.Müslümova məxsus 490 min manat dəyərində iki mənzil satışa çıxarılıb.

Fevralda sabiq nazir müsadirə edilən əmlaklarının satışa çıxarılmasına belə münasibət bildirmişdi: "Mənə aid olan əmlak müsadirə olunub, satışa çıxarılıb, əlavə heç nə deyə bilmərəm. Burada böyüdüləcək nə var? Nə deyə bilərəm ki?" (manset.az).

Vurğulamaq yerinə düşər ki, Müslümovun sözügedən əmlaklarının kimlər (hüquqi, yoxsa fiziki şəxslər) tərəfindən alınıb-alınmadığı məlum deyil. Bu ilin payızında 65 yaşı olacaq eks-nazirin bəzi əmlakları özünün almaq istəməsi də istisna olunmur. Lakin iddialar onun əvvəlki maliyyə qüdrətini çox itirdiyi, şəxsi biznesinin də ürəkaçan olmadığı bildirilir. Belə olan təqdirdə Səlim müəllimin milyonlarla manat müsadirə edilən əmlaklarını geri almaq üçün xərcləməsi elə də inandırıcı görünmür.

Maraq üçün keçmiş nazirin müsadirə olunan əmlaklarının tam siyahısını da təqdim edirik:

1. Bakı şəhəri, Binəqədi rayonu, Ak. Ziya Bünyatov pr. ev 13 v, mənzil 38
2. Bakı şəhəri, Binəqədi rayonu, Ak. Ziya Bünyatov prospekti 7 a, mənzil 3
3. Bakı şəhəri, Səbail rayonu, Azadlıq prospekti 5 ünvanda yerləşən qeyri-yaşayış sahəsi
4. Bakı şəhəri, Yasamal rayonu, Mirzə İbrahimov küçəsi, 422 məhəllə, ev 53, mənzil 108
5. Bakı şəhəri, Nərimanov rayonu, Oqtay Kərimov küçəsi, ev 69 və 71
6. Bakı şəhəri, Nərimanov rayonu, Məmməd Araz küçəsi, ev 51
7. Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mikrorayonun qərb hissəsində yerləşən 500 və 300 kv.metr torpaq sahələri
8. Bakı şəhəri, Xətai rayonu, Rəsul Rza küçəsi, məhəllə 2942 ünvanda yerləşən 300 kv.m olan qeyri yaşayış sahəsi.

S.Müslümov 1995-ci ildən bəri hökumətdə yüksək vəzifələr tutub, 1995-ci ilin iyulundan 2000-ci ilin martınadək Maliyyə Nazirliyində idarə rəisi vəzifəsində çalışıb. 2000-ci ilin martında Dövlət Gömrük Komitəsinin sədr müavini təyin edilib. 2002-ci ilin 17 dekabrında Dövlət Sosial Müdafiə Fondunun sədri vəzifəsinə gətirilib. 2013-cü ildən 2018-ci ilin 21 aprelinə kimi isə əmək və əhalinin sosial müdafiəsi naziri işləyib".

***Toğrul Əliyev***

# Dövlət sifarişi ilə oxuyan tələbələrdən pul tələb olunur? - Açıqlama

***Dövlət sifarişi əsasında təhsil alan tələbələrdən hər hansı formada ödəniş tələb olunması qanunvericiliyə ziddir. Belə tələbələrin təhsil xərcləri dövlət büdcəsi hesabına qarşılanır və bununla bağlı hər hansı maliyyə yükü tələbənin üzərinə qoyula bilməz.***



Bu barədə "Unikal"a Elm və Ali Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib. Bildirilib ki, bu baxımdan, təhsil müəssisəsinin özəl statusu dövlət sifarişi əsasında qəbul olunmuş tələbələrin maliyyələşdirilməsi ilə bağlı dövlət tərəfindən müəyyən edilmiş hüquqi rejimi dəyişmir.

"Təhsil müəssisəsinin daxili maliyyə planlaşdırması, ayrılmış vəsaitin idarə olunması, yaxud ilin sonuna istifadə olunmamış vəsaitlə bağlı yaranmış hallar tələbələr üçün əlavə öhdəlik yaratmır. Universitet tərəfindən maliyyə məsələlərinin düzgün tənzimlənməməsinin nəticəsinə görə tələbə cavabdeh deyil.

Məsələ ilə bağlı aidiyyəti ali təhsil müəssisəsinin müraciətinə qanunvericiliyin tələblərinə uyğun olaraq baxılıb və rəsmi qaydada cavab verilib. Bildirilib ki, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.5-ci maddəsinə əsasən, ilin sonunda istifadə olunmamış və vahid xəzinə hesabına köçürülmüş vəsaitin geri qaytarılması Elm və Təhsil Nazirliyinin səlahiyyətləri çərçivəsində mümkün deyil", - məlumatda qeyd olunub.

Qeyd edək ki, Qərbi Kaspi Universitetində dövlət sifarişi əsasında təhsil alan tələbələrdən ödəniş tələb edildiyi ilə bağlı xəbərlər yayılıb.

# MİDA-da rəhbər vəzifəyə təyinat



***Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyində (MİDA) yeni təyinat olub.***

"Unikal" Report-a istinadən xəbər verir ki, Agentliyin Beynəlxalq əlaqələr və strateji planlaşdırma şöbəsinin müdir müavini vəzifəsinə Şöhrət Süleymanlı təyin edilib.

Ş.Süleymanlı 2024-cü ilin aprel ayından 2026-cı ilin aprel ayınadək MİDA-da Beynəlxalq əlaqələr və investisiyaların təşviqi sektorunun rəhbəri vəzifəsində çalışıb. O, eyni zamanda 2024-cü ildən etibarən Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) pedaqoji fəaliyyətlə məşğuldur.

Ş. Süleymanlı 2015-2019-cu illərdə UNEC-də Dünya iqtisadiyyatı ixtisası üzrə, 2017-2018-ci illərdə isə Türkiyənin Hacettepe Universitetində Beynəlxalq əlaqələr ixtisası üzrə bakalavr təhsili alıb. O, 2019-2022-ci illərdə Türkiyənin Orta Doğu Teknik Universitetində (ODTÜ) İqtisadi-riyazi modelləşdirmə ixtisası üzrə magistr dərəcəsi əldə edib.

Bununla yanaşı, Ş.Süleymanlı 2023-cü ilin noyabr ayından Azərbaycan Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunda Ümumi iqtisadiyyat - iqtisadi modelləşdirmə ixtisası üzrə fəlsəfə doktoru proqramı üzrə təhsil alır.

# Yeni sədr rəisi işdən azad etdi

***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Qapalı Səhmdar Cəmiyyətində (ASCO) daha bir kadr dəyişikliyi olub.***



"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı ASCO-nun sədri Əfqan Cəlilov əmr imzalayıb. Əmrə əsasən, Xəzər Dəniz Neft Donanmasının rəisi Qurbanov Taqət Allahqulu oğlu işdən azad edilib.

ASCO-dan sorğumuza cavab olaraq bildirilib ki, Taqət Qurbanov Azərbaycan Respublikası Əmək Məcəlləsinin 69.3-cü maddəsinə uyğun olaraq, təqaüd yaşına çatması ilə əlaqədar öz ərizəsi əsasında vəzifəsindən ayrılıb.

Hazırda bu vəzifəyə təyinat yoxdur.

Xatırladaq ki, Əfqan Cəlilov yanvar ayında ASCO-nun rəhbəri təyin edilib.

***Murad İbrahimli***

12_27 IYUI-QARA.qxd 4/6/2026 10:38 AM Page 11



## “Wolf Fitness”də qanunsuz arıqlama məhsulları satılırmış



***Qida Təhlükəsizliyi Agentliyi Bakı şəhərində fəaliyyət göstərən idman qidalarının satışının həyata keçirildiyi mağaza və idman zallarında monitorinq aparıb.***

Agentlikdən ”Unikal”a verilən məlumata görə, monitorinq aparılan 17 müəssisənin 16-da idman qida məhsullarının satışının həyata keçirildiyi halda qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi məlum olub.

Eyni zamanda, Bakı şəhəri, Xətai rayonu, X.Məmmədov küçəsi, ev 34 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Qasımov Əfqan Ruslan oğluna məxsus “Wolf Fitness” idman zalında arıqlamaq məqsədilə qəbul edilən “L-Carnitine 2000 caffeine” əmtəə nişanlı, Sabunçu rayonu, Bakıxanov ştq, Sülh küçəsi 14/2 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Bayramov Fuad Fəqan oğluna məxsus “Arslan” fitnes zalında isə “Gold Standart Whey”, “C4-Pre Workout”, “Argipower 120 cepl” əmtəə nişanlı idman qida məhsullarının müvafiq icazə sənədi olmadan qanunsuz şəkildə satışının həyata keçirildiyi aşkarlanıb.

Həmin məhsullardan nümunələr götürülərək təhlükəsizlik tələblərinin yoxlanılması məqsədilə Qida Təhlükəsizliyi İnstitutunun laboratoriyasına təqdim edilib və məhsulların toxunulmazlığı təmin edilərək satışdan kənarlaşdırılıb.

Monitorinq zamanı həmçinin “İRON MAXX”, “Whey.az”, “Protein Shop” mağazalarında, “Qol güləşi idman kompleksi”ndə, “Wolf Fitness”, “Just FİT”, “Arslan Fitnes” və “Adrenaline” idman zallarında üzərində Azərbaycan dilində etiket məlumatları olmayan idman qida məhsulları aşkar edilib ki, həmin məhsullar da satışdan kənarlaşdırılaraq etiketlənməsinin qanunvericiliyin tələblərinə uyğunlaşdırılması barədə icrası məcburi göstərişlər verilib.

Monitorinqlər davam etdirilir.

## 22 milyon manatdan çox ipoteka krediti verilib



***Bu ilin yanvar-fevral aylarında İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə 22,3 milyon manat kredit verilib.***

”Unikal” Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrü müqayisədə 2 dəfə azdır.

Hesabat dövründə Fondun yenidən maliyyələşdirdiyi kreditlərin məbləği isə 14 % artaraq 54,5 milyon manat olub.

İl ərzində İKZF-nin istiqraz buraxmaqla cəlb etdiyi vəsaitin məbləği 2 dəfə azalaraq 100 milyon manata düşüb, Fonda dövlət büdcəsindən ayrılmış vəsaitin məbləği isə dəyişməyərək 21,3 milyon manat olub.

## Nağd xarici valyutanın alışı satışını 51 milyon dollar üstələyib

***Cari ilin ötən dövründə valyuta bazarında vəziyyət stabil olaraq qalıb. 2026-cı ilin yanvar-fevral aylarında mübadilə şöbələri tərəfindən nağd xarici valyutanın alışı satışını 51 milyon dollar üstələyib.***

Azərbaycan Respublikası Mərkəzi Bankından (AMB) ”Unikal”a bildirilib ki, rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsinin son 12 ayda 2,8 faiz bəndi azalaraq 2026-cı ilin fevralında 27,7 faizə enməsi məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu göstərir.

Bu şəraitdə 2026-cı ilin I rübündə Mərkəzi Bankın valyuta ehtiyatları 1,2 faiz artaraq 11,7 milyard dollara çatıb.

# Nazim İbrahimovun qalmaqallı qardaşına yeni şok

## Hacı İbrahimin dövlətə borcu daha da artdı - Həbs oluna bilər...

***Diasporla İş üzrə Dövlət Komitəsinin keçmiş sədri Nazim İbrahimovun qardaşı, iş adamı İbrahim İbrahimova məxsus ”Avesta Konserni” şirkətinin vergi borcu bir qədər də artıb.***

Şirkətin borcu hazırda 773 944,74 manat təşkil edir.

Bir müddət əvvəl bu məbləğ 703 985,46 manat idi. Beləliklə, aydın olur ki, ”Avesta Konserni”nin vergi borcu 69 959,28 manat artıb (Qaynarinfo).

Xatırladaq ki, İbrahim İbrahimov mətbuatda və ictimaiyyət arasında Hacı İbrahim Nehrəmli kimi tanınır. ”Xəzər adaları” layihəsinin müəllifi olan 68 yaşlı Hacı İbrahim 2015-ci ildə Azərbaycan Beynəlxalq Bankı (ABB) ilə bağlı kredit qalmaqalından sonra əvvəlki biznes imkanlarını itirməyə başlayıb.

Həmin vaxt yayılan məlumatlarda iddia olunurdu ki, Hacı İbrahim ”Xəzər adaları” layihəsi üçün ABB-dən 850 milyon dollar kredit götürüb. Lakin vəsait təyinatı üzrə xərclənməyib. Bu səbəbdən də Hacı İbrahimdən kredit qaytarılması tələb edilib.

Yeri gəlmişkən, həmin qalmaqaldan sonra ”Xəzər adaları” layihəsinin icrası dayanıb.

Onu da deyək ki, Nazim İbrahimovun hazırda iki qardaşı həbsdədir. Tağı İbrahimov “Bakı Ağac Emalı” ASC-də 10 nəfərin ölümü ilə nəticələnən yanğın hadisəsinə görə həbs edilib. Hacı İbrahimin daha bir qardaşı - STS və “Sahil-D Kompani” şirkətlərinin sahibi olan Sahib İbrahimov isə 2018-ci ildə həbs olunub.

Bəzi iddialara görə, vergi və digər borcları səbəbindən Hacı İbrahimin də həbs olunması təəccüb doğurmazdı. Belə ki, hələ 2015-ci ildə o, hüquq mühafizə orqanlarının əməkdaşları tərəfindən saxlanılıb, ancaq bir müddət sonra sərbəst buraxılıb. Həmin vaxt qalmaqallı iş adamının özü də sözügedən xəbəri təsdiqləmişdi. “Bildiyiniz kimi, mənim Azərbaycan Beynəlxalq Bankından götürdüyüm kreditin vaxtı 2019-cu ildə başa çatır. Vaxtı keçmiş kreditimi bağladım, qalan hissəsini isə qrafikə uyğun ödəyəcəm”, - deyə o vurğulamışdı. Ardınca da əlavə etmişdi: “Hər şey normaldır, qaydasındadır”. Hacı İbrahim 78 milyon manat kredit borcunun olduğunu da təsdiqləmişdi.

Bəzi məlumatlara görə, Hacı İbrahim Beynəlxalq Bankdan mifik “Xəzər adaları” layhəsini reallaşdırmaq adı ilə 850 milyon dollar götürüb. “Ümumilikdə Hacının kredit borclarının məbləği 1 milyard dollara yaxındır. Yəni Hacı İbrahim utopik layihəsinə “öz pullarını” yox, banklardan aldığı kreditləri xərcləyib. Özü də Beynəlxalq Banka ödəyəcəyi kreditlə yanaşı, başqa kreditlərinin olduğunu da etiraf edib” - o zaman media yazırdı.

Lakin sonrakı illərdə məlum oldu ki, sabiq komitə sədrinin qalmaqallı iş adamı olan qardaşı “Hər şey normaldır, qaydasındadır” deyərkən çox nikbin imiş: o, mifik bir layihə adı ilə külli miqdarda kredit alaraq həmin pulları təkcə “Xəzər adaları”na yox, şəxsi təyyarəyə, katibəsi üçün yüz min dollarlıq “CİP”ə, minlərlə dollarlıq ətirlərə, özünə 14 min dollara ayaqqabı almağa, model gözəllərə və s. bu kimi dəbdəbələrə xərcləyib.

Həmin zamandan etibarən isə Hacı İbrahim heç cür belini düzəldə bilmir. İri məbləğlərlə ifadə olunan borclar içində çapalamağa davam edir. Hətta ötən il onun Məmməd Araz küçəsi 109 ünvanında yerləşən və “Avesta Konserni” kimi tanınan əsas mülkünü - hündürmərtəbəli qeyri-yaşayış binasını satmaq məcburiyyətində qaldığı bildirilmişdi. Bəzi qaynaqlar bu gedişlə Hacı İbrahim Nehrəmlinin də sabiq komitə sədrinin həbsdəki qardaşları siyahısına qoşulmasını mümkün sayırlar.

Daha bir maraqlı fakt: Hazırda Hacı İbrahimin qudası olan Mahir Quliyev də həbsdədir. O, Biləsuvar rayonunun keçmiş icra başçısıdır. Məsələ burasındadır ki, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) 2020-ci il aprelin 29-da həyata keçirdiyi əməliyyat-istintaq tədbirləri nəticəsində Quliyev saxlanılıb və onun barəsindəa həbs qətimkan tədbiri seçilib. Bundan başqa, DTX-nın yaydığı videoda Mahir Quliyev ”əməllərini” etiraf edərək, ”bundan utandığını” bildirib. Prezidentin sərəncamı ilə o, elə həmin il aprelin 30-da vəzifəsindən azad edilib.



Daha sonra M.Quliyev Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə və israf etmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən suiistifadə etmə), 311.3.2-ci (təkrar rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirli bilinərək, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 11 il azadlıqdan məhrum edilib.

Bir sözlə, anormal situasiya yaranıb: vaxtilə nəhəng biznes imperiyaları ilə qılınclarının az qala dalı da, qabağı da kəsən İbrahimov qardaşları və onların yaxın ətrafı indi vəzifəsizlik, müflisləşmə, həbs, milyonlarla manatlıq borc kimi xəbərlərlə gündəmə gəlirlər. Məşhur el məsəlində deyildiyi kimi: “Kiminin əvvəli, kiminin axırı...”.

***Sənan Mirzə***

12_27 IYUI-QARA.qxd 4/6/2026 10:38 AM Page 12



**5.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda deepfake texnologiyasına qarşı yeni hüquqi addım!

## Osman Gündüz:" Son illərdə süni intellekt texnologiyalarının inkişafı ilə birlikdə deepfake manipulyasiyaları, reputasiya hücumları və seksual şantaj halları dünyada ciddi problemə çevrilib"

***Süni intellekt texnologiyalarının sürətli inkişafı cəmiyyət üçün həm yeni imkanlar, həm də müəyyən risklər yaradıb. Odur ki, Azərbaycanda süni intellektlə bağlı yeni hüquqi dəyişikliklər hazırlanıb.***

Belə ki, şəxsin razılığı olmadan onun səsi və ya görüntüsündən istifadə edərək süni intellekt vasitəsilə saxta foto, video və ya audio hazırlamaq və yaymaq 3000 - 7000 manat məbləğində cərimə və ya 360 - 480 saat ictimai işlər, eləcə də 3 ilədək azadlığın məhdudlaşdırılması

və ya 3 ilədək azadlıqdan məhrumetməyə (həbs) səbəb olacaq.

Əgər bu əməl bir neçə nəfərə qarşı həyata keçirilərsə, qabaqcadan əlbir olan qrup tərəfindən edilərsə, eləcə də şəxsi nüfuzdan salmaq və ya reputasiyaya zərər vurmaq məqsədi daşıyarsa 3 ildən 5 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir.

Pornoqrafik və ya seksual xarakterli deepfake materialların hazırlanması və yayılması isə 3 ildən 7 ilədək azadlıqdan məhrumetməyə səbəb olacaq. Məlumatlandırma tələbinə görə, süni intellekt vasitəsilə hazırlanmış foto, video və ya digər vizual materiallar yayımlanarkən, onların süni intellekt tərəfindən yaradıldığı açıq şəkildə göstərilməlidir.

Azərbaycanda süni intellektdən istifadə ilə bağlı yeni hüquqi dəyişikliklərin qəbul edilməsi mühüm addım hesab olunur.

İKT üzrə ekspert Osman Gündüz "Unikal" qəzetinə açıqlamasında bildirib ki, ölkədə süni intellektlə bağlı qanunvericiliyə yeni dəyişikliklər təklifi müsbət addımdır. Çünki,

təkliflərə görə, süni intellekt vasitəsilə hazırlanmış foto, video və audiomateriallar yayılan zaman onların süni intellektlə hazırlandığı açıq şəkildə işarələnməlidir. Bu tələbi pozanlar isə cərimələnəcək. Onun sözlərinə görə, daha ciddi məsələ deepfakelərlə bağlıdır.

"Şəxsin razılığı olmadan onun səsi və ya görüntüsü əsasında süni intellektlə saxta material hazırlamaq və yaymaq cinayət hesab ediləcək. Xüsusilə pornoqrafik və ya seksual xarakterli deepfake materialların hazırlanması və yayılması üçün 3 ildən 7 ilədək həbs cəzası nəzərdə tutulur.

Əslində bu təşəbbüs təsadüfi deyil.

Son illərdə süni intellekt texnologiyalarının inkişafı ilə birlikdə deepfake manipulyasiyaları, reputasiya hücumları və xüsusilə seksual şantaj halları dünyada ciddi problemə çevrilib. Xüsusən də porno ilə bağlı sərt yanaşmalar tətbiq edilir. Bir çox ölkələr artıq bu risklərə qarşı hüquqi mexanizmlər qurmağa başlayıblar. Bu baxımdan belə addımlar şəxsi həyatın, ictimai nüfuzun və informasiya təhlükəsizliyinin qorunması üçün zəruridir".



Amma ekspert deyir ki, burada da incə bir məqam var. Belə ki, süni intellektlə hazırlanmış materialların işarələnməsi media mühitində şəffaflıq yaratsa da, bunun tətbiqi mexanizmi problemlər yarada bilər.

"Əgər bu proses düzgün qurulmasa, xəbər istehsalı və informasiya mübadiləsi üçün əlavə hüquqi risklər yarada bilər. Süni intellektlə hazırlanmış şəkil necə sübut olunacaq, hansı səviyyədə istifadə olunanda işarələnmə tələb olunacaq, əlavə alətlərdən də istifadə edilsə necə qiymətləndiriləcək?

Yeni dəyişikliklərin tətbiqində təcrübələrin olmadığı bir halda məmurlar tərəfindən əlavə bürokratik əngəllər yarana bilər.

Yəni əsas məsələ yalnız cəzaların sərtliyi deyil, qanunun necə tətbiq olunacağıdır. Çünki süni intellekt texnologiyaları sürətlə yayılır və yaxın illərdə media, kommunikasiya və yaradıcı sənayenin böyük hissəsi bu alətlərdən daha çox istifadə edəcək.

Kimlər bundan yararlanmayacaqsa rəqabətə tab gətirə bilməyəcək.

Bu səbəbdən yeni hüquqi yanaşmalar hazırlanarkən iki məqsəd paralel qorunmalıdır.

Bir tərəfdən vətəndaşların hüquqları və reputasiyası qorunmalıdır, digər tərəfdən isə innovasiya, yaradıcılıq və açıq informasiya istehsalına, xəbər istehsal edən qurumlara maneçilik yaradılmamalıdır", deyə Osman Gündüz bildirib.

Ekspert deyir ki, bu dəyişikliklər süni intellekt texnologiyalarının məsuliyyətli istifadəsini təşviq edir. O. Gündüzün sözlərinə görə, texnologiyanın inkişafı davam edərkən onun etik və hüquqi çərçivədə tətbiqi vacibdir:" "Qanunvericilik çərçivəsinin formalaşdırılması şirkətləri, media qurumlarını və fərdi istifadəçiləri süni intellektdən daha məsuliyyətli istifadə etməyə məcbur edəcək. Azərbaycanda süni intellektlə bağlı qəbul edilən hüquqi dəyişikliklər yalnız hüquqi tənzimləmə deyil, həm də cəmiyyətin təhlükəsizliyini, vətəndaşların hüquqlarını və texnologiyaların məsuliyyətli inkişafını təmin edən vacib addımdır. Bu addımlar ölkədə həm rəqəmsal mühitin sağlamlaşmasına, həm də süni intellektin gələcək inkişafının daha etibarlı əsaslar üzərində qurulmasına xidmət edir".

Qeyd edək ki, deepfake-lərlə bağlı yeni hüquqi dəyişikliklərin müsbət tərəfləri çoxdur.

Belə ki, süni intellekt texnologiyalarının inkişafı ilə birlikdə "deepfake" adlanan saxta foto, video və audio materialların hazırlanması daha asan hala gəlib. Bu texnologiya bəzən yaradıcılıq və texnoloji inkişaf üçün istifadə olunsa da, şəxslərin razılığı olmadan onların səsi və ya görüntüsündən istifadə edilməsi ciddi problemlərə səbəb ola bilər. Azərbaycanda bu sahədə yeni hüquqi dəyişikliklərin edilməsi isə bir sıra mühüm müsbət nəticələr vəd edir.İlk növbədə, bu dəyişikliklər şəxsi hüquqların qorunmasını gücləndirir. "Deepfake" texnologiyası vasitəsilə insanların adından saxta videolar və ya səslər hazırlamaq onların nüfuzuna zərər vura bilər. Qanunvericilikdə bununla bağlı məsuliyyətin müəyyən edilməsi vətəndaşların şərəf və ləyaqətinin qorunmasına kömək edir.

Digər mühüm üstünlük dezinformasiyanın qarşısının alınmasıdır. "Deepfake" materiallar xüsusilə sosial şəbəkələrdə sürətlə yayıla və cəmiyyətdə yanlış məlumatların yayılmasına səbəb ola bilər. Hüquqi tədbirlərin tətbiqi bu cür saxta məzmunların hazırlanmasını və yayılmasını azaltmağa kömək edir.Bu dəyişikliklər həm də rəqəmsal mühitdə təhlükəsizliyi artırır. İnsanlar internetdə gördükləri foto və videoların saxta olma ehtimalından narahat olduqda rəqəmsal platformalara etimad azalır. Deepfake-lərlə bağlı hüquqi məsuliyyətin müəyyən edilməsi onlayn mühitin daha etibarlı olmasına şərait yaradır.

Eyni zamanda, bu addım süni intellektin etik istifadəsini təşviq edir. Texnologiya inkişaf etdikcə onun düzgün və məsuliyyətli istifadə edilməsi böyük əhəmiyyət daşıyır. Qanunlar süni intellektdən istifadə edən şəxslərə və təşkilatlara daha məsuliyyətli davranmağı təşviq edir.

Nəticə olaraq, deepfake-lərlə bağlı hüquqi dəyişikliklər yalnız cəza mexanizmi deyil, həm də cəmiyyətin, informasiya mühitinin və fərdi hüquqların qorunması üçün vacib bir addımdır. Bu dəyişikliklər Azərbaycanda rəqəmsal təhlükəsizliyin gücləndirilməsinə və süni intellekt texnologiyalarının daha sağlam mühitdə inkişaf etməsinə töhfə verir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Nizami Kino Mərkəzi müdaxiləyə məruz qaldı

***Bakı şəhəri, Bülbül prospekti 20 ünvanında yerləşən ölkə əhəmiyyətli memarlıq abidəsi (123 inventar nömrəli) olan Nizami Kino Mərkəzinin binası naməlum şəxs və ya şəxslər tərəfindən müdaxiləyə məruz qalıb.***



"Unikal" xəbər verir ki, bu barədə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti və Azərbaycan Respublikasının Kino Agentliyi (ARKA) birgə bəyanat yayıb.

Qeyd olunub ki, həmin şəxslər binanın fasadına boya vasitəsilə cızma-qara edib, müxtəlif söz və ifadələr yazıblar. Faktla bağlı hüquq-mühafizə orqanlarına müraciət olunub.

Hazırda hadisənin hansı şəraitdə baş verdiyi və əməli törədənlərin şəxsiyyəti müəyyənləşdirilir.



"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən abidələrin korlanması və ya məhv edilməsi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır. Abidələrin qorunması haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulması cinayət, inzibati, intizam və mülki məsuliyyət yaradır. Qeyd edək ki, Nizami Kino Mərkəzinin binası dövlət tərəfindən mühafizə edilən, paytaxtın memarlıq mənzərəsinə xüsusi görkəm verən tarixi abidələrdən biridir. Hazırda tarixi abidəyə edilən müdaxilənin nəticələrinin aradan qaldırılması və binanın ilkin görkəminə qaytarılması istiqamətində tədbirlər görülür. Bir daha bütün vətəndaşları tarixi irsimizə həssas yanaşmağa çağırır, abidələrin qorunması haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə riayət olunmasını tələb edirik. Belə hallarla qarşılaşan şəxslərdən isə dərhal qaynar xəttimizə (147-yə) məlumat verilməsini xahiş olunur.

12_27 IYUI-QARA.qxd 4/6/2026 10:38 AM Page 13



# "Dörd gün ərzində nə yaşadığımızı bilmədik" - Generalın xanımı Aprel döyüşlərindən yazdı



***Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun həyat yoldaşı Ofelya Salmanova “Facebook” hesabında paylaşım edib.***

”Unikal” həmin paylaşımı təqdim edir:

“Aprel döyüşləri Azərbaycan ordusunun öz gücünü ortaya qoyduğu həqiqi mübarizənin və böyük qələbənin ilk carçısı idi. Aprelin 1-dən 2-nə keçən gecə başlayan döyüşlər cəmi dörd gün davam etdi.

Müharibənin iki səhnəsi olur - biri ön səhnədir - odlu-alovlu, müharibə qoxulu. Neçə-neçə igidin qan tökdüyü, dostların, qardaşların bir-birinin gözünün içinə baxaraq, bəlkə də son vəsiyyətlərini edərək can verdiyi, son saniyələrin sayıldığı bir səhnə. Müharibə - dəhşətdir.

Bir də müharibənin arxa səhnəsi var - asmada qalan ümidlər, yollarda qalan gözlər, bir xəbərin gəlməsi ümidi ilə üzülən ürəklərg Mən bunların hamısını yaşamışam. Hətta bu yazını belə göz yaşları içində, əlim əsə-əsə yazıram. Sanki Poladdan 2016-cı ilin bu günlərində bir xəbər gəlsin deyə keçirdiyim hissləri yenidən yaşayıram. Fərq ondadır ki, o vaxt gələcəyinə ümid var idi, bu gün isə yox.

Martın son günləri idi. Polad Həşimov gün ərzində dəfələrlə evə gəlir, beş - on dəqiqə dayanırdı. Bəzən danışır, bəzən isə heç nə demirdi. Uşaqlarla zarafatlaşır, tez gedir, sonra yenə qayıdırdı. Əlbəttə, onlar bilirdilər ki, müharibə başlayacaq. Bizdən nigaran idi. Axı insanın vətəni evindən başlayır. Nə döyüşlər haqqında deyə bilirdi, nə də gedə bilirdi...

Aprelin 1-dən 2-nə keçən gecə evdə yox idi. Qapı və pəncərələrin şiddətlə silkələnməsi ilə oyandım. Əvvəl elə bildim zəlzələdir. Uşaqlara baxdım. Amma güclü titrəyişlər hələ də davam edirdi. Mən ilk gündən Polad Həşimovla birlikdə cəbhə bölgəsində yaşamışam. Atəşkəs rejimi demək olar ki, hər gün pozulurdu. Amma mən müharibənin səsini o günə qədər eşitməmişdim. Müharibənin həqiqi üzünü isə dörd ildən sonra Tovuz döyüşlərində görəcəkdimg

Biz Bərdə rayonunda yaşayırdıq. Polad Həşimov 1-ci Ordu Korpusunun komandir müavini, Qərargah rəisi vəzifəsində çalışırdı. Yəni cəbhə bizə çox yaxın idi. Hələ xəstəxanaya yaralı əsgər və zabitləri daşıyan təcili yardım maşınlarının səsini demirəm. Hər maşın keçəndə ürəyimizdən sanki bir tel qırılırdı. O maşınlar kiminsə əzizini, Vətənin isə bir qəhrəmanını daşıyırdı.

Dörd gün ərzində nə yaşadığımızı bilmədik. Ta ki aprelin dördü saat 12-dən sonra Polad Həşimov zəng edənə qədər:

- Salam, necəsiniz? Mən yaxşıyam, narahat olmayın.

Bu üç- dörd kəlmə söz belə mənə bəs idi. O sağ idi, vəssalam.

Döyüşlərdən təxminən iyirmi gün sonra evə gəldi. Gələcəyini bilirdik. Yolun başında dayanıb gözləyirdik. Uzaqda maşın dayananda uşaqlar hay-haraylа qabağına qaçdı. Onu ilk dəfə idi ki, bu qədər yorğun görürdüm. Həmişə dik olan qamətinin arxasında səssiz bir hüzn görünürdü. Həyətdə əyləşdi. Başıaşağı, gözlərini bir nöqtəyə dikib dəqiqələrlə danışmadı. Biz də başına yığışıb nə vaxt danışacağını gözləyirdik.

Xeyli susdu. Sonra başını qaldırıb dedi:

- Heyifg İki aya torpaqları işğaldan azad edə bilərdik.

Dəhşətə gəldim. Bu nə vətən sevgisi, bu nə torpaq sevgisi, bu nə fədakarlıq, bu nə qətiyyət idi! Sən demə, onun susqunluğu və yorğunluğu ağır döyüşlərdən çıxmağına görə deyilmiş. Ruhu hələ də düşmənin nəzarətində qalan vətən torpaqlarında imiş. Bir də itirdiyi əsgər balalarının, zabit qardaşlarının son baxışlarında. Elə o an bir daha anladım ki, nə Polad Həşimov, nə onun yetirməsi olan zabit və əsgərlər, ümumiyyətlə Azərbaycanın qeyrətli oğulları dayanacaq - son qarış Vətən torpağı azad olunana qədər.

Aprel döyüşləri zamanı 1-ci Ordu Korpusunun komandir müavini, Qərargah rəisi vəzifəsini daşıyan Polad Həşimov Tərtər istiqamətində gedən döyüşlərə nəzarət edirdi. Bu döyüşlərdə Tərtər rayonunun Talış istiqamətində yerləşən əlverişli mövqeləri və strateji nöqtələri azad olundu. Talış yüksəkliyi işğaldan azad edildi. İllərdir erməni postlarından açılan atəşlərin nəticəsində öz normal həyatlarını yaşa bilməyən kəndlər, kənd əhalisi rahatlığa qovuşdu.

Onlar deyirdilər: “Biz neçə illər idi ki, yerin altında yaşayırdıq, Aprel döyüşlərindən sonra biz yerin üstünə çıxdıq”.

Aprel döyüşlərində göstərdiyi xidmətlərə görə Prezident İlham Əliyev tərəfindən Polad Həşimov “Vətənə xidmətə görə” ordeni ilə təltif edildi. Talış yüksəkliklərindəki postlardan birinə isə “Polad postu” adı verildi”.

# Aprel qələbəsindən 10 il ötür

***Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı Aprel döyüşlərindən 10 il ötür.***

”Unikal” xatırladır ki, 2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradıb, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad edib. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçib. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə 23 ildən sonra xalqımıza qələbə sevinci yaşadıb.

Silahlı Qüvvələrimizin həyata keçirdiyi əks-həmlə əməliyyatının məqsədi Ermənistan silahlı qüvvələrinin təmas xəttindəki yaşayış məntəqələrinə törətdiyi təhlükəni aradan qaldırmaq idi. Belə ki, 2016-cı ilin martından başlayaraq, Ermənistan silahlı qüvvələrinin birləşmələri cəbhəboyu zonadakı yaşayış məntəqələrini daha sıx atəşə tutmağa başlamışdı. Vəziyyəti gərginləşdirmək məqsədilə erməni hərbi birləşmələri artilleriya qurğularından həm döyüş mövqelərimizi, həm də təmas xəttinə yaxın olan yaşayış məntəqələrini atəşə tuturdu. Düşmən aprelin 2-nə keçən gecə bütün mövqelərimizi, eyni zamanda mülki əhalini atəşə tutub. Azərbaycan tərəfindən dərhal adekvat tədbirlərin görülməsi ilə bağlı qərar qəbul edilib və qəti cavab zərbələri endirilib. Düşmən müdafiəsinin ön xəttində və dərinliyində yerləşən koordinatlar müəyyənləşdirilib, Ermənistan ordusunun canlı qüvvəsi və hərbi texnikası məhv edilib.

Aprel hadisələrində cəbhənin ən gərgin istiqaməti Ağdərə-Tərtər-Ağdam və Füzuli istiqaməti olub. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri aprelin əvvəlində qısa müddətdə düşmənin öndə və dərinlikdə cəmləşən qüvvələrini müəyyənləşdirib və qəti zərbələrlə sıradan çıxarıb. Uğurlu əməliyyatlar nəticəsində Naftalan şəhərinə təhlükə yaradacaq Talış kəndi istiqamətindəki yüksəkliklər işğalçılardan təmizlənib. Həmçinin Horadiz şəhərinin düşmən təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən olduqca strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi azad edilib.

Ordumuzun qəti zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edilib, 320 hərbçisi öldürülüb, 500-dən artıq döyüşçüsü yaralanıb. Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılması təmin edilib.

Aprel döyüşlərində illərlə yaradılan “məğlubedilməz erməni ordusu” mifi dağıdılıb və erməni xalqı işğalçılıq siyasətinin iflasa uğradığını dərk edib. Aprel qələbəsi əsgərlərimizin döyüş ruhunun, ordu ilə xalqın birliyinin təcəssümü olub.

Uğurlu aprel əməliyyatından sonra Ermənistanın işğalçılıq siyasəti danılmaz faktlarla yenidən təsdiqlənib. Belə ki, döyüşlərdə ölənlərin əksəriyyətinin Ermənistan hərbi qulluqçularının olması, onların Ermənistan hökuməti tərəfindən mükafatlandırılması, yaralıların böyük bir hissəsinin Ermənistanın tibb müəssisələrində müalicə alması və dövlət tərəfindən “separatçı cəlladların” könüllü adı altında yenidən Qarabağa göndərilərək erməni ordusunun qoyub qaçdığı səngərlərə doldurulması cəhdi və digər faktlar buna əyani sübutdur.

Ermənistan ordusunun təmas xəttində törətdikləri təxribatlar zamanı dinc əhali arasında da həlak olan və yaralananlar olub, yaşayış məntəqələrimizə böyük ziyan dəyib.



Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə Azərbaycan hərbçilərinin xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülüb, orden və medallarla təltif edilib.

Vətən qarşısındakı xidmətlərinə görə təltif edilənlər arasında “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına, “Azərbaycan Bayrağı” və “Vətənə xidmətə görə” ordenlərinə, “Vətən uğrunda”, “İgidliyə görə” və “Hərbi xidmətlərə görə” medallarına layiq görülənlər var.

Uğurlu Aprel döyüşlərinin məntiqi davamı olaraq, Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-dən başlayaraq 44 gün ərzində torpaqlarımızı işğaldan azad edib, Ermənistan kapitulyasiya aktına imza atmağa məcburiyyətində qalıb.

2023-cü il sentyabrın 19-da üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

23 saatdan bir qədər çox davam edən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılıb. Düşmən ağ bayraq qaldıraraq təslim olub. Bununla da Azərbaycanın bütün ərazilərində Konstitusiya quruluşu bərpa edilib.

Dövlət başçısı oktyabrın 15-də Xankəndi şəhərinə, Xocavənd, Şuşa, Xocalı, Ağdərə rayonlarına səfər edib, Əsgəran qalasında olub və orada Azərbaycan bayrağını qaldırıb.

12_27 IYUl-QARA.qxd 4/6/2026 10:38 AM Page 14



# Bu il üçün inflyasiya proqnozu artırıla bilər

***Son meyillər nəticəsində Azərbaycanda bu il üçün inflyasiya proqnozu artırıla bilər.***

"Unikal" bu barədə Azərbaycan Mərkəzi Bankına (AMB) istinadən xəbər verir. Məlumata görə, baza ssenariyə əsasən, 2026-cı ilin və 2027-ci ilin sonuna illik inflyasiyanın hədəf daxilində olacağı proqnozu dəyişməz qalır. Son meyillərin təhlili 2026-cı ilə inflyasiya proqnozunun artma istiqamətində dəyişdirilməsi ehtimalının olduğunu göstərir.

"Faiz dəhlizinin parametrlərinə dair ötən iclasdan bəri inflyasiya riskləri balansına artırıcı təsir göstərə bilən amillərin aktivləşməsi müşahidə olunur. Regionda gərginliyin kəskin fazaya keçməsi qlobal əmtəə-maliyyə bazarlarında qiymət və indeks dəyişkənliyini yüksəltməkdədir. Bu şəraitdə əsas xarici risk idxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi ilə bağlıdır. Belə ki, qlobal neft və qazın təchizat zəncirlərində pozuntuların yaranması, enerji məhsullarının qiymətinin artımı və logistika xərclərinin yüksəlməsi ticarət tərəfdaşlarında inflyasiyanın artımına səbəb ola bilər. İdxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi riski ticarət tərəfdaşlarında inflyasiya prosesləri ilə yanaşı, nominal effektiv məzənnənin dinamikasından da asılı olacaq. Daxili risk faktorları arasında təklif - xərc amilləri mühüm olaraq qalır", - deyə AMB bəyan edib.




# Ağdam-Xankəndi dəmir yolunun tikintisi davam etdirilir

***Ağdam-Xankəndi dəmir yolu xəttinin layihələndirilməsi işlərinin 86,5 %-i, tikinti-quraşdırma işlərinin 42,6 %-i yerinə yetirilib.***

Bu barədə "Unikal"a "Azərbaycan Dəmir Yolları" QSC-dən məlumat verilib. Bildirilib ki, dəmir yolu xəttinin uzunluğu 28 kilometr, yan yollarla birlikdə 30,8 kilometr təşkil edir.

Layihə çərçivəsində 3 stansiya (Əsgəran və Xocalı stansiyaları, Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksi) və 124 ədəd mühəndis qurğusunun inşası nəzərdə tutulur. Bu 3 stansiya bu xətt ən müasir standartlar əsasında ölkədaxili nəqliyyat mobilliyini gücləndirəcək.

Xatırladaq ki, 2025-ci il avqustun 30-da Bakı-Ağdam-Bakı marşrutu üzrə sərnişin daşımalarına başlanılıb. Hazırda sərnişinlər marşrut üzrə Bakı, Biləcəri, Ucar, Ləki, Yevlax, Bərdə, Köçərli, Təzəkənd və Ağdam stansiyalarından istifadə edirlər. ADY sərnişinlərə İsveçrənin "Stadler" şirkətinin istehsalı olan "FLIRT" markalı müasir qatarlarla xidmət göstərir. Sərnişinlərə standart, standart+, biznes və birinci siniflər üzrə səyahət imkanları təklif olunur.

Qeyd edək ki, işğal dövrünə qədər Bakıdan Xankəndiyə kimi sərnişin daşımaları yataq tipli qatarla həyata keçirilirdi. Həmin vaxt qatarlar Bakı-Xankəndi-Bakı istiqamətində sonuncu dəfə 1993-cü ildə hərəkət edib.



# Milli Kitabxanada Aprel qələbəsinin 10-cu ildönümünə həsr olunan ənənəvi kitab sərgisi keçirilib

***Bu gün Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı Aprel döyüşlərinin 10-cu ildönümüdür.***

Milli Kitabxanada Aprel döyüşlərinin tarixi əhəmiyyətini ictimaiyyətə çatdırmaq, gənc nəsildə vətənpərvərlik ruhunu gücləndirmək və şəhidlərimizin xatirəsinə böyük ehtiram göstərmək məqsədilə "Aprel döyüşləri" adlı elektron məlumat bazası, "Aprel döyüşləri - böyük zəfərin başlanğıcı" adlı virtual sərgi və "Aprel döyüşləri və ya dördgünlük müharibə" adlı geniş ənənəvi kitab sərgisi istifadəçilərə təqdim edilib.

Elektron məlumat bazasında (https://anl.az/el/emb/aprel_doyusleri/index.html) sistemləşdirilmiş tammətnli resurslar "Rəsmi sənədlər", "Dördgünlük müharibə", "Aprel şəhidləri", "Kitablar", "Məqalələr", "Aprel döyüşlərinin xatirəsi", "Fotoqalereya" və "Videoqalereya" bölmələrində onlayn istifadəçilərə təqdim edilir.

Virtual sərgidə (https://anl.az/el/vsb/Aprel_doyusleri/index.htm) Lələtəpə, Talış yüksəklikləri və digər strateji yüksəkliklərin işğaldan azad olunması, Lələtəpə fatehlərinin qəhrəmanlıqları, Aprel döyüşləri - böyük zəfərin başlanğıcı, Böyük Zəfər haqqında dövri mətbuat məqalələri, Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar, fotolar nümayiş olunur.

Ənənəvi kitab sərgisində isə 2016-cı ilin Aprel döyüşləri zamanı əldə olunan qələbələr, Azərbaycan ordusunun tarixi Zəfəri, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən hərbi və siyasi strategiyası, Azərbaycan əsgərinin əfsanəvi qəhrəmanlıqları və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin döyüş yolu haqqında Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar, dövri mətbuat məqalələri və fotolar nümayiş olunur.




2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalırıb və ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını alıb.

Tarixə Aprel döyüşləri kimi düşən dördgünlük müharibədə qəhrəman əsgər, gizir və zabitlərimiz təcavüzkar Ermənistan ordusuna ağır zərbələr endirərək 2 min hektardan artıq ərazi - Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olunub.

Aprel döyüşləri Azərbaycanın qəhrəman ordusunun hazırlığını, əsgərlərin igidliyini və Ali Baş Komandan İlham Əliyevin uzaqgörən strateji baxışını göstərərək gələcək Böyük Zəfərə yol açıb. Nəhayət, 44 günlük İkinci Qarabağ müharibəsində Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 30 illik işğala son qoyaraq ölkəmizin ərazi bütövlüyünü bərpa edib.



# Samuxda orta aylıq nominal əmək haqqı 684,4 manat olub

***2025-ci il-ci ərzində Samux rayonun iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 5684 nəfər və hər bir işçiyə düşən orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,7 faiz artaraq 684,4 manat təşkil etmişdir. İqtisadiyyatın dövlət sektorunda muzdla çalışan işçilərin sayı 4042 nəfər, orta aylıq nominal əməkhaqqı 723,1 manat, qeyri dövlət sektorunda isə muzdla çalışan işçilərin sayı 1642 nəfər, orta aylıq nominal əmək haqqı 584,4 manat olmuşdur.***

Ən çox orta aylıq nominal əməkhaqqı iqtisadiyyatın kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, maliyyə və sığorta fəaliyyətində, peşə, elmi və texniki fəaliyyətlə məşğul olan sahələrdə, dövlət idarəetməsi, müdafiə, sosial təminat orqanlarında, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, istirahət, əyləncə və incəsənət sahəsində və digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində mövcud olmuşdur.

Muzdla çalışan işçilərin sayının 35,8 faizi təhsil müəssisələrində, 10,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq təsərrüfatının, 7,8 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,2 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat idarələrinin, 13,2 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 2,8 faizi nəqliyyat və anbar təsərrüfatında 6,7 faizi istirahət, istirahət və əyləncə sahəsində, 15,8 faizi isə iqtisadiyyatın digər fəaliyyət növləri ilə məşğul olan sahələrinin işçiləri olmuşdur.

***Samux Rayon Statistika İdarəsi***

# 2025-ci ildə Yevlax şəhərində tikintinin əsas göstəricilərinə dair statistika

***2025-ci ildə rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 99674,5 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 28,1 faiz çox investisiya yönəldilmişdir.***

2025-ci il ərzində əsas kapitala yönəldilmiş investisiyaların 93602,7 min manatı dövlət mülkiyyətnə, 6071,8 min manatı isə qeyri dövlət mülkiyyətinə yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 90314,6 min manatı tikinti-quraşdırma işlərinə sərf edilmişdir ki, əvvəlki il ilə müqayisədə 23,1 faiz və ya 16973,5 min manat çox olmuşdur.

2025-ci ildə tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş tikinti işlərin həcmi 4239,2 min manat olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 335,8 min manat və ya 6,8 faiz çox olmuşdur. Yerinə yetirilmiş işlərin dəyərinin 3817,5 min manatı cari təmir işlərinə, 421,7 min manatı sair tikinti işlərinə sərf edilmişdir.

2025-ci ildə fəaliyyət göstərən tikinti müəssisələrində siyahı tərkibli işçilərin orta sayı 130 nəfər olmuşdur.

2025-ci ildə muzdlu çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 511,5 manat, əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,7 faiz çox olmuşdur.

***Hazırladı,***
***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi Şamxal Mirzəyev***

12_27 IYUI-QARA.qxd 4/6/2026 10:38 AM Page 15





## "Putinə bu barədə məlumat verilməyib" - Paşinyan

***"Gündəliyini nəzərə alaraq, Rusiya prezidenti istəsə belə, təfərrüatlara varmaq iqtidarında deyil. Düşünürəm ki, ona bu nüans barədə məlumat verilməyib".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan Rusiya lideri Vladimir Putinin seçkilərdə Rusiya pasportu olan insanların iştirakı ilə bağlı açıqlamasından danışarkən bildirib.

Paşinyan bildirib ki, Rusiya prezidenti Ermənistan Konstitusiyasını və qanunlarını bu qədər ətraflı öyrənməyə məcbur deyil: "O, tam məlumatlandırılmalı idi. Mən ona belə bir nüans olduğunu bildirdim".

Xatırladaq ki, dünən Rusiya prezidenti Ermənistanın baş nazirinə demişdi: "Bu sizin qərarınızdır, amma biz istərdik ki, Rusiya pasportu olanlar daxili siyasi proseslərdə iştirak edə bilsinlər".

***Ağarza Elçinoğlu***

## "Rusiya NATO-ya düşmən ittifaq kimi baxır" - Peskov

***"Kreml NATO-nu Rusiyanı düşmən hesab edən düşmən ittifaq kimi görür".***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov ABŞ prezidenti Donald Trampın İrandakı əməliyyatdan sonra ABŞ-nin təşkilata üzvlüyünü yenidən nəzərdən keçirmək vədini şərh edərkən bildirib.

Kremlin sözçüsü brifinq zamanı bildirib ki, "Bu, bizə düşmən olan bizi özünün düşməni hesab edən və müvafiq tədbirlər görən bir ittifaqdır".

***Gülayə Mecid***

## "On minlərlə var" - Paşinyan ordudakı fərarilərdən danışdı

***""Qəhrəman" sözünü çox ehtiyatla işlətməliyik, çünki onu o qədər çox işlətmişik ki, əsl qəhrəmanları söz qəhrəmanlarına çevirmişik".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan deyib.

Paşinyan orduda on minlərlə fərarilik hadisəsinin olduğunu da gizlətməyib: "Biz kimdən gizlədirik ki? Döyüş tapşırıqlarını yerinə yetirməkdən imtina edən on minlərlə insanımız var".

***Ağarza Elçinoğlu***

## "Biz müharibəyə hazırlaşırıq" - Lukaşenko

***Belarus Prezidenti Aleksandr Lukaşenko bildirib ki, ölkəsi müharibəyə hər an hazır olmalıdır.***

"Unikal" xəbər verir ki, onun sözlərini "BelTa" agentliyi sitat gətirib.

Onun sözlərinə görə, Belarus ordusu daim döyüş hazırlığında olmalı və ölkəyə qarşı hər hansı bir təhdidə dərhal cavab verə bilməlidir.

"Biz müharibəyə hazırlaşırıq. Buna görə də Silahlı Qüvvələri yaratdıq, ona görə də onları saxlayırıq", - Lukaşenko bildirib. O əlavə edib ki, ordu məhz dövlət təhlükəsizliyini təmin etmək üçün mövcuddur. Eyni zamanda, Lukaşenko qeyd edib ki, respublika hərbi münaqişədə maraqlı deyil.

***Gülayə Mecid***

# "Qorxaq generallarımız var, 44 günlük müharibə zamanı..." - Paşinyan

***"Bizim qorxaq generallarımız var".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan deyib.

"Bu necə generaldır ki, qarnı 3 metr qabağa çıxıb? Bu, ümumiyyətlə hərbçi görünüşüdür? Əsgər müəyyən fiziki hazırlıq standartlarına cavab verməlidir, - deyə o, brifinq zamanı açıqlayıb.



Paşinyan 44 günlük mübaribədən danışarkən fərarilik hallarını qeyd edib: "Qarabağdan gəliblər, ifadəmə görə bağışlayın, onlar kişi cinsindəndirlər. Amma araşdıranda görürük ki, 44 günlük müharibə zamanı onların biri panik atakdan, biri fərari, biri də oğlunu mövqelərindən qaçıran adam olub. İndi Opera Teatrında dayanıb sinəsinə vurmaq asandır".

***Ağarza Elçinoğlu***

# "Onlar rüsvay olana qədər davam edəcəyik" - İran

***İran ABŞ və İsrail təslim olduqlarını elan edənə qədər döyüşməyə davam edəcəyik.***

"Unikal" xəbər verir ki, bunu İran İslam Respublikası Silahlı Qüvvələrinin Xatəm əl-Ənbiya Mərkəzi Komandanlığının sözçüsü İbrahim Zülfəqari deyib.

Zülfüqari Amerika və İsrail hakimiyyət orqanlarına müraciət edərək bildirib ki, "Bu müharibə sizin tam rüsvayçılığınıza, məğlubiyyətinizə və təslim olmağınıza qədər davam edəcək".

Bundan əvvəl ABŞ Prezidenti Donald Tramp bildirib ki, yaxın iki-üç həftə ərzində Amerika ordusu İrana qarşı güclü zərbələr endirəcək və ölkəni yenidən Daş dövrünə qaytaracaq.



Xatırladaq ki, fevralın 28-də ABŞ İsraillə birlikdə İrana qarşı hərbi əməliyyata başlayıb. Buna cavab olaraq Tehran İsrailə, Amerika bazalarına və Yaxın Şərqdəki neft infrastrukturuna raket və pilotsuz təyyarələrlə hücumlar həyata keçirir. İran həmçinin İranın dəniz neft daşımalarının təxminən 30%-ni təşkil edən Hörmüz boğazını da bağlayıb. Müharibə davam edir.

# Vardanyan onu istefa verməyə qoymurmuş - Şahramanyan açıqladı

***"Arayik Harutyunyan bir neçə dəfə istefa vermək niyyətində olduğunu bildirib. Siyasi səhəmizdəki nümayəndələrin, o cümlədən keçmiş prezidentlərin və Ruben Vardanyanın uzun müddət onu belə bir addım atmamağa inandırmağa çalışdıqlarının şahidi olmuşam".***

"Unikal" xəbər verir ki, bunu Qarabağda ləğv olunmuş separatçı rejimin sonuncu rəhbəri Samvel Şahramanyan deyib.



Onun sözlərinə görə, Arayik Harutyunyan istefa vermək istəməyini ən azı beş-altı nəfərlə müzakirə edib: "Bu, o dövrdə çox güman ki, düzgün deyildi. Harutyunyan istefa verməli olduğu məsələsini "Artsax"ı bu vəziyyətdən çıxaracaq tədbirlər görmək üçün resurslarının olmadığını deyərək əsaslandırdı".

Qeyd edək ki, bu ilin əvvəlində Bakı Hərbi Məhkəməsində Arayik Harutyunyan qəti olaraq ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunub.

***Ağarza Elçinoğlu***

# Overçuk Paşinyanın bu təklifini pislədi

***"Moskva Ermənistanın Rusiya üçün düşmən bloka çevrilmiş Aİ-yə daxil olmağa hazırlaşdığını görür".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Baş nazirinin müavini Aleksey Overçuk TASS-a müsahibəsində deyib.

Qərb ölkələrinin peşəkarcasına İrəvanı cəlb etdiyini vurğulayan Overçuk xüsusilə Ermənistanın dəmir yolları məsələsinə münasibət bildirərək, Moskvanın Ermənistanın ixrac bazarlarını genişləndirməsinə qarşı olmadığını, lakin Nikol Paşinyanın Rusiyaya aid güzəştin üçüncü ölkələrə vermək təkliflərini pislədiyini vurğulayıb.

Rusiya hökumətinin baş nazirinin müavini qeyd edib ki, belə bir inkişafın uzunmüddətli ağır nəticələri olacaq.

***Gülayə Mecid***

# Türkiyə PKK-çıların Niderlanddan ekstradisiyasını tələb edir

***Türkiyə FETÖ və PKK ilə əlaqəli 225 şəxsin Niderlanddan ekstradisiyasını tələb edir.***

"Unikal" xəbər verir ki, bunu Türkiyənin ədliyyə naziri Akın Gürlek deyib.

O, Ankaranın şübhəlilər üçün Niderlanda ekstradisiya tələbləri təqdim etdiyini açıqlayı. Bunlardan 217-si FETÖ, 8-i isə kürd hərbi-siyasi təşkilatı PKK üzvüdür.

Gürlek Türkiyənin Niderlandı müttəfiq kimi gördüyünü və hüquqi əməkdaşlıq gözlədiyini qeyd edib. Gürlek həmçinin Amsterdam hakimiyyətini bu təşkilatlarla əlaqəli şəxslərə sığınacaq və ya yaşayış icazəsi verməməyə və əvvəllər verilmiş statusu yenidən nəzərdən keçirməyə çağırıb.

***Gülayə Mecid***

12_27 IYUI-QARA.qxd 4/6/2026 10:39 AM Page 16



# "Qarabağ" - "Sabah" görüşü Rauf Cabarova həvalə olunub

***Futbol üzrə Azərbaycan Kubokunda yarımfinal mərhələsinin ilk oyunlarının təyinatları açıqlanıb.***

"Unikal" Peşəkar Peşəkar Futbol Liqasına istinadən xəbər verir ki, "Turan Tovuz" - "Zirə" matçı FIFA refirisi Əliyar Ağayevə tapşırılıb.

"Qarabağ" - "Sabah" matçını Rauf Cabarov idarə edəcək.



**Azərbaycan Kuboku**
**Yarımfinal, ilk oyunlar**
**3 aprel (cümə)**

17:30. "Turan Tovuz" - "Zirə"

Hakimlər: Əliyar Ağayev, Zeynal Zeynalov, Akif Əmirəli, Fərid Hacıyev

VAR: Cavid Cəlilov

AVAR: Kamran Bayramov

Hakim-inspektor: Babək Quliyev

AFFA nümayəndəsi: Elçin Mehtiyev

Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionu

20:00. "Qarabağ" - "Sabah"

Hakimlər: Rauf Cabarov, Elşad Abdullayev, Pərvin Talıbov, İnqilab Məmmədov

VAR: Kamal Umudlu

AVAR: Vüsal Məmmədov

Hakim-inspektor: Asim Xudiyev

AFFA nümayəndəsi: Erkin Hüseynov

Tofiq Bəhramov adına Respublika Stadionu

# AFFA ilə "Eyeball" arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***AFFA ilə "Eyeball" şirkəti arasında əməkdaşlıq müqaviləsinin imzalanma mərasimi keçirilib.***

AZƏRTAC xəbər verir ki, AFFA-nın baş katibi Cahangir Fərəcullayev bu layihənin uşaq futbolçuların fərdi inkişafı üçün mühüm əhəmiyyət daşıdığını bildirib. Onun sözlərinə görə, müasir texnologiyaların tətbiqi məşq prosesinin keyfiyyətini artıracaq, gənc oyunçuların potensialının daha erkən mərhələdə üzə çıxarılmasına imkan verəcək.

C.Fərəcullayev vurğulayıb ki, gələcəkdə bu sistemin daha geniş miqyasda, yəni müxtəlif yaş qrupları və liqalar üzrə tətbiqi nəzərdə tutulur. AFFA rəsmisi növbəti iki il ərzində avropalı skautların oyunçuların məlumatlarını izləyə və azərbaycanlı futbolçuları öz komandalarına cəlb edə biləcəklərini söyləyib. Bu da öz növbəsində gənc oyunçuların Avropaya getməsi üçün önəmli şərait yaradacaq.




"Eyeball"ın direktoru Manfred Lerli bildirib ki, bu, Çempionlar Liqasının bir çox qalibləri də daxil olmaqla, 150-dən çox Avropa klubunun seçdiyi gənclər platformasıdır. O qeyd edib ki, bir neçə MLS klubu, ABŞ-nin iri klubları, həmçinin Afrika və Yaxın Şərqin aparıcı komandaları da "Eyeball"ın müştəriləridir. Direktor AFFA-nın da bu platformaya qoşulmasının xoş məqam olduğunu deyib. M.Lerlinin sözlərinə görə, uşaq futbolunda yanvar və fevral aylarında doğulan uşaqlar, dekabrda anadan olan həmyaşıdlarından fiziki olaraq daha güclü görünürlər. O, skautların da səhvən həmin oyunçuları daha istedadlı hesab etdiyini, lakin böyük futbolda bu fərqin itdiyini və həqiqi istedadların üzə çıxdığını diqqətə çatdırıb.

Rəsmi çıxışlardan sonra əməkdaşlıq müqaviləsi imzalanıb. C.Fərəcullayev tərəfindən Manfred Lerliyə xatirə forması hədiyyə edilib.

Müqaviləyə əsasən, "Eyeball" şirkətinin müasir kamera və analiz platforması Azərbaycan futbolunda tətbiq olunacaq. Əməkdaşlıq çərçivəsində ölkə futbolunda texnoloji yeniliklərin tətbiqi, oyunların daha dəqiq təhlili, həmçinin məşq proseslərinin və oyun performansının müasir metodlarla qiymətləndirilməsi nəzərdə tutulur. Yeni sistem vasitəsilə komandaların taktiki hazırlığı, oyunçu performansı və statistik göstəricilər daha detallı şəkildə analiz ediləcək.

# Qattuzo qovulacaq



***Italiya millisinin baş məşqçisi Cennaro Qattuzo vəzifəsindən qovulacaq.***

QOL.az xəbər verir ki, bu barədə insayder Fabritsio Romano məlumat yayıb. İtaliya yığması DÇ-2026-nın pley-off finalında Bosniya və Herseqovinaya penaltilər seriyasında məğlub olub (1:1, 1:4). Bununla da komanda mundialda iştirak hüququnu itirib. Ötən gün federasiyanın prezidenti Qabriel Qravina mütəxəssisi istefaya göndərməyəcəklərini desə də, daha sonra baş məşqçi ilə bağlı qərar dəyişib. Hətta ölkə mətbuatında Qabriel Qravinanın da istefaya göndəriləcəyi yazılıb.

Qattuzo 2025-ci ildən İtaliya millisinə rəhbərlik edir. O, əvvəllər "Hayduk Split", "Marsel", "Napoli" və "Milan"ı çalışdırıb.

# Tonali "Real"a keçə bilər



***İtaliya millisinin və İngiltərənin "Nyukasl" komandasının yarımmüdafiəçisi Sandro Tonali İspaniyanın "Real Madrid" klubuna təklif edilib.***

"Unikal" xəbər verir ki, futbolçu özü İngiltərədə qalmaq istəsə də, agentləri onun "kral klubu"na mümkün transferi üzərində işləyirlər.

Belə ki, onlar Madrid təmsilçisinin prezidenti Florentino Peresə müraciət edərək, "Nyukasl"ın ulduz oyunçunu 80 milyon funt sterlinq qarşılığında satmağa hazır olduğunu bildiriblər.

İddiaya görə, "Real Madrid" "Mançester Siti"nin yarımmüdafiəçisi Rodrini transfer edə bilməsə, Tonali ilə danışıqlara başlayacaq.

Qeyd edək ki, Sandro Tonali bu mövsüm "Nyukasl"da 47 oyunda meydana çıxıb, 3 qol vurub və 7 məhsuldar ötürmə edib.

# Gənclər Liqasının bütün matçlarında çəkiliş aparılacaq

***Gənclər Liqasının bütün matçlarda çəkiliş aparılacaq.***

"Unikal" xəbər verir ki, bu sözləri AFFA-nın baş katibinin müavini Elçin Məmmədov milli assosiasiya ilə "Eyeball" şirkəti arasında əməkdaşlıq müqaviləsinin imzalanma mərasimindən sonra təşkil olunan mətbuat konfransında deyib.

O, bununla bağlı məşqçilərə təlimlərin keçiriləcəyini bildirib: "Məşqçilər geniş şəkildə məlumatlandırılacaq. Keçirilən bütün oyunların datası AFFA-ya təqdim olunacaq və biz futbolçuların analiz edəcəyik. Buna əsasən, istedadlı və seçilən futbolçuların milliyə cəlb olunması istiqamətində işlər aparılacaq".

# "Qalatasaray" 30 milyona aldığı Uğurcana qiymət qoydu



***"Qalatasaray"da və Türkiyə millisində uğurlu çıxışı ilə diqqət çəkən Uğurcan Çakır ölkəsində və Avropada bəzi klubların maraq dairəsinə düşüb.***

QOL.az bu barədə "Sabah" qəzetinə istinadən xəbər verir.

İstanbul təmsilçisinin ötən yay "Trabzonspor"dan bonuslarla birlikdə 30,5 milyon avroya transfer etdiyi 29 yaşlı qapıçının uğurlu çıxışı onun transfer bazarında qiymətini artırıb.

Məlumatda bildirilir ki, "Qalatasaray" Uğurcan üçün minimum 40 milyon avro qiymət qoyub.

# Azərbaycan idmançılarının yeni reytinqi - TOP-10-da kimlər var?

***Azərbaycan idmançılarının 2026-cı ilin aprel ayının 1-nə olan reytinq cədvəli açıqlanıb.***

Bu barədə Gənclər və İdman Nazirliyi məlumat yayıb.

Siyahıya yunan-Roma güləşçisi Həsrət Cəfərov (480 xal) liderlik edir. Sərbəst güləşçi Giorgi Meşvildişvili (460 xal) ikinci, cüdoçu Zelim Kotsoyev (440 xal) üçüncüdür.

Həmçinin TOP-10-luqda müvafiq olaraq Ülvü Qənizadə (yunan-Roma güləşi, 400 xal), Elcan Hacıyev (cüdo, 370 xal), Murad Əhmədiyev (yunan-Roma güləşi, 320 xal), Zelim Tçkayev (cüdo, 320 xal), Arsen Dijoyev, Osman Nurmaqomedov (hər ikisi sərbəst güləş, 320 xal), Eldəniz Əzizli (yunan-Roma güləşi, 320 xal) da yer alıblar.